# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 435 Yanvar 2024



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



***MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ-140***

**"II BEYNƏLXALQ RƏSULZADƏ QİRAƏTLƏRİ" ADLI BEYNƏLXALQ ELMİ KONFRANS**










*MAHAMMAD EMIN RASULZADE-140*

**INTERNATIONAL SCIENTIFIC CONFERENCE "II INTERNATIONAL RASULZADE READINGS"**










# İÇİNDƏKİLƏR

"II Beynəlxalq Rəsulzadə Qiraətləri" adlı Beynəlxalq Elmi Konfrans
Konfrans çərçivəsində Tadeuş Svetoçovskinin xatirə gecəsi ........ 6
Konfrans iştirakçıları Məhəmməd Əmin Rəsulzadənin Bakının Novxanı kəndindəki abidəsini ziyarət ediblər ........ 8
"Kotanlı" restoranında ziyafət və mükafatlandırma ........ 9
"II Beynəlxalq Rəsulzadə Qiraətləri" adlı Beynəlxalq Elmi Konfransın açılış mərasimi ........ 10
Konfransın işi Azərbaycan Kültür Dərnəyinin 75 illiyi münasibətilə keçirilən tədbirlə yekunlaşdı ........ 12
*Solmaz Rüstəmova-Tohidi.* Millət sevgisi və ədəbiyyat: *"II Beynəlxalq Rəsulzadə Qiraətləri": Hamlet İsaxanlı* ........ 14
Gürcü ədəbiyyatının öyrənilməsi ilə bağlı seminar ........ 16
İngilis dili və ədəbiyyatı departamentində magistr müdafiəsi ........ 18
Tələbə və müəllim birliyinin rəmzi olan "Xəzər"in işığında" adlı sərgi ........ 20
Təbriz Tibb Universitetinin professoru Soodabeh Davaran`ın "Xəzər"də seminarı ........ 23
Əcnəbi Tələbələr Klubunda Yeni il həftəsi ........ 24
Bakıda Demirören Medya`nın yayımladığı Qarabağa aid kitabın təqdimatı ........ 26
Prof. Akad.Hamlet İsaxanlı akademik Kamal Talıbzadənin 100 illik yubileyinə həsr edilmiş tədbirdə ........ 27
"Xəzər"də yubiley ........ 28
Təhsil Qrant tələbələri ilə görüş ........ 32
Nailəxanım təqaüdü tələbələri ilə görüş ........ 33
Əcnəbi doktorantın dissertasiyasının ilkin müzakirəsi ........ 34
Ümumxalq Hüzn Günü ilə bağlı anım mərasimi ........ 37
Əməkdaşlar Royan Biotexnologiya İnstitutuna ezam olunmuşlar ........ 38
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........ 40
Çinin Hebei Normal Universitetinin əməkdaşları "Xəzər"də ........ 48
Dumlupinar Universitetinin nümayəndələri "Xəzər"də ........ 52
Xəzər Universitetinin nümayəndələri Rusiya Federasiyasının Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda ........ 54
*Akif Əlizadə.* İlin ən böyük hadisələri: torpaq və ədalət zəfəri ........ 56
Danimarka Krallığının nümayəndə heyəti Xəzər Universitetində ........ 66
*İsaxan İsaxanlı.* Ovçu və durna ........ 68
*Valeh Mirzə.* Стихи в прозе ........ 70
Molla Xəzər ........ 74

1995-ci ilin
yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Məsul katib:**
Valeh Mirzə

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**International Scientific Conference "II International Rasulzade Readings"**

**Memorial Evening of Tadeusz Svetochovski Within the Conference............................ 6**

**Conference Attendees Toured the Mahammad Amin Rasulzade Monument in Novkhani Village, Baku.............................................................................................................8**

**Celebration and Recognition at Kotanli Restaurant...................................................9**

**Opening Ceremony of "II International Rasulzade Readings" Conference.......................10**

**Conference Concludes with Celebration of Azerbaijan Cultural Association's 75th Anniversary.....................................................................................................12**

*Solmaz Rustamova - Tohidi*. **Love for Nation and Literature: "II International Rasulzade Readings": Hamlet Isakhanli (*in azerbaijani*).................................................14**

**Georgian Literary Influence Explored at Khazar University .......................................16**

**Master Thesis Defense at English Language and Literature Department.........................18**

**Exhibition "In the Light of "Khazar", Symbol of Student and Teacher Union ......................20**

**Seminar by Tabriz Medical University Professor Soodabeh Davaran at Khazar University ...........................................................................................................23**

**New Year's Week at the International Students Club.................................................24**

**Presentation of the Book About Karabakh Published by Demiroren Media in Baku...........26**

**Prof. Acad. Hamlet Isakhanli Attends Academician Kamal Talibzade's Centennial Celebration Event..........................................................................................27**

**Jubilee Event at Khazar University (*in azerbaijani*) ................................................28**

**Support for Education Grant Recipients .................................................................32**

**Meeting With Nailekhanim Scholarship Recipients ...................................................33**

**Foreign Doctoral Candidate's Dissertation Pre-Defense..............................................34**

**National Day of Mourning Commemoration.............................................................37**

**Khazar University Staff Embarks on Mission to Royan Institute of Biotechnology ............38**

**News of the Institute of ANAS Named After Nizami (*in Azerbaijani*).................................40**

**Staff Members of Hebei Normal University of China at Khazar University ........................48**

**Representatives of Dumlupinar University at Khazar ................................................52**

*Akif Alizade*. **The Year's Most Significant Events: Victory for Land and Justice (*in Azerbaijani*) ..........................................................................................56**

**Delegation From the Kingdom of Denmark at Khazar University ...................................66**

*Isakhan Isakhanli*. **The Hunter and the Crane (*in Azerbaijani*) ...................................68**

*Valeh Mirza*. **Prose Poetry (*in Russian*) ..............................................................70**

**Molla Khazar (*Satirical Musings; in azerbaijani*) ...................................................74**

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Editorial Secretary:** Valeh Mirza

**Photo**: Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



# "II BEYNƏLXALQ RƏSULZADƏ QİRAƏTLƏRİ" ADLI BEYNƏLXALQ ELMİ KONFRANS

# INTERNATIONAL SCIENTIFIC CONFERENCE "II INTERNATIONAL RASULZADE READINGS"

*Bakıda 2024-cü il 29 yanvar -1 fevral tarixlərində "II Beynəlxalq Rəsulzadə Qiraətləri" adlı Beynəlxalq Elmi Konfrans keçirildi. Konfransın təşkilatçıları "M.Ə.Rəsulzadə Ev Muzeyi" İctimai Qrupu, Milli Azərbaycan Tarixi Muzeyi, Xəzər Universiteti, Ankara Üniversiteti, Varşava Universiteti və VMF şirkəti idi.*

## KONFRANS ÇƏRÇİVƏSİNDƏ TADEUŞ SVETOÇOVSKİNİN XATİRƏ GECƏSİ

Yanvarın 29-da konfrans çərçivəsində Xəzər Universitetinin Mərmər zalında görkəmli Polşa və Amerika tarixçisi, XX əsr Azərbaycan tarixinin ilk xarici tədqiqatçılarından biri, Azərbaycanın böyük dostu, Xəzər Universitetinin Fəxri doktoru Tadeuş Svetoçovskinin xatirə gecəsi keçirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı tədbiri açaraq, görkəmli tarixçinin Azərbaycanla bağlı elmi fəaliyyəti və əsərləri haqqında geniş məlumat verdi. Qeyd etdi ki, Svetoçovskinin Xəzər Universiteti ilə sıx əlaqələri vardı. Onun "Russia and Azerbaijan: A Borderland in Transition" kitabı universitet tərəfindən tərcümə etdirilərək, "Rusiya və Azərbaycan: Sərhədyanı bölgə keçid dövründə" adı ilə elə universitetin nəşriyyatında çap edilmişdir. Svetoçovski Xəzər Universitetinin Fəxri doktoru adı verilmiş ilk xarici mütəxəssisdir.

Tədbirdə Prof. Solmaz Tohidi, Dr. Fərda Əsə-

*On January 29-February 1, 2024, the International Scientific Conference "II International Rasulzade Readings" was held in Baku. The organizers of the conference were "M.A. Rasulzade House Museum" Public Group, National Azerbaijan History Museum, Khazar University, Ankara University, Warsaw University and VMF company.*

## MEMORIAL EVENING OF TADEUSZ SVETOCHOVSKI WITHIN THE CONFERENCE

On January 29, within the framework of the conference, the memorial evening of Tadeusz Svetochovski, a renowned Polish and American historian, one of the first foreign researchers of the history of Azerbaijan in the 20th century, a great friend of Azerbaijan, Honorary Doctor of Khazar University, was held in the Marble Hall of Khazar University.

Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, opened the event and detailed the scientific activities and works of the outstanding historian related to Azerbaijan. He noted that Svetochovsky had close relations with Khazar University. His book "Russia and Azerbaijan: A Borderland in Transition" was translated by the university and published by the university publishing house. Svetochovski is the first foreign specialist to be awarded the title of Honorary Doctor of Khazar University.

At the event, Prof. Solmaz Tohidi, Dr. Farda Asa-

ANKARA ÜNİVERSİTESİ 1946 UNIVERSITY OF WARSAW VMF



Hamlet İsaxanlı



dov (AMEA Şərqşünaslıq İnstitutu), Prof. Qulu Məhərrəmli və digərləri çıxışlarında Svetoçovskinin Azərbaycanla əlaqədar yaradıcılığının müxtəlif cəhətlərindən bəhs etdilər.

Tədbirin qonaqları - Varşava Universiteti Şərqi Avropa Aaşdırmaları İnstitutunun rəhbəri Yan Maliski və institutun Qafqazşünaslıq ixtisası üzrə seminar rəhbəri David Kolbai geniş çıxışlarında mövzu ilə əlaqədar mülahizələrini bildirmiş, xatirələrini danışmışlar.

Sonda Yan Maliski Hamlet İsaxanlıya hədiyyə təqdim etmişdir.

dov (Institute of Oriental Studies of ANAS), Prof. Gulu Muharramli and others talked about various aspects of Svetochovsky's work related to Azerbaijan.

The guests of the event - Jan Malishi, head of the Institute of East European Studies of the University of Warsaw and David Kolbai, the head of the Caucasian studies seminar of the institute, expressed their views on the topic and shared their memories in their extensive speeches.

In the end, Jan Malishi presented a gift to Hamlet Isakhanli.




David Kolbai



Yan Maliski



## KONFRANS İŞTİRAKÇILARI MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN BAKININ NOVXANI KƏNDİNDƏKİ ABİDƏSİNİ ZİYARƏT EDİBLƏR

Yanvarın 30-da "II Beynəlxalq Rəsulzadə Qiraətləri" adlı Beynəlxalq Elmi Konfransın iştirakçıları - Azərbaycan tarixi və Məhəmməd Əmin Rəsulzadə irsinin yerli və xarici tədqiqatçıları, ziyalılar, ictimaiyyət nümayəndələri onun Novxanı kəndindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzmüşlər.

Prof. Solmaz Rüstəmova-Tohidi ("Rəsulzadə Ev Muzeyi" İctimai qrupu), Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Vera-Maria-Aux (Almaniya), Georgi Mamulia (Fransa), Tohid Məlikzadə (İran), Səadət Kərimi (İsveç), Səlcuk Önal (Türkiyə), Vahid Mustafayev (VMF şirkəti), Prof. Qulu Məhərrəmli və digərləri mərasimdə çıxış edərək, Məhəmməd Əmin Rəsulzadənin xatirəsinin daim əziz tutulacağına və əbədi yaşayacağına əminlik bildirmişlər.

## CONFERENCE ATTENDEES TOURED THE MAHAMMAD AMIN RASULZADE MONUMENT IN NOVKHANI VILLAGE, BAKU

On January 30, the attendees of the International Scientific Conference "II International Rasulzade Readings" - local and foreign researchers of Azerbaijani history and the heritage of Mahammad Amin Rasulzade, intellectuals, public representatives visited his monument in Novkhani village and laid flowers in front of it. Prof. Solmaz Rustamova-Tohidi ("Rasulzade House Museum" Public Group), Director of Public Relations and Media of Khazar University Alovsat Amirbeyli, Vera-Maria-Aux (Germany), Georgi Mamulia (France), Tohid Malikzade (Iran), Saadat Karimi ( Sweden), Selcuk Onal (Türkiye), Vahid Mustafayev (VMF company), Prof. Gulu Maharramli and others spoke at the ceremony and expressed confidence that the memory of Mahammad Amin Rasulzade will always be cherished and will live forever.



# "KOTANLI" RESTORANINDA ZİYAFƏT VƏ MÜKAFATLANDIRMA

Yanvarın 31-də "Kotanlı" restoranında konfrans iştirakçıları üçün böyük ziyafət verildi. Bədii-musiqili şam yeməyi zamanı Hamlet İsaxanlı, Polşa Respublikasının Azərbaycandakı səfiri Rafal Poborski, Yan Maliski (Varşava Universiteti), Səlcuk Önal (Türkiyə) və digərləri çıxış edərək, davam etməkdə olan konfransın əhəmiyyətindən və yüksək səviyyədə təşkilindən danışdılar.

Ziyafətdə mükafatlandırma baş tutdu. VMF Holdinq tərəfindən hazırlanmış, üzərində Məhəmməd Əmin Rəsulzadənin şəkli və imzası olan saat Səlcuk Önal, Səbahəddin Şimşir, Salavat İsakov (Rusiya), Tohid Məlikzadə (İran) və Varşava Universitetinin dosenti Şəhla Kazımovaya təqdim olundu.

Ziyafət iştirakçıların xoş əhval-ruhiyyəsi ilə başa çatdı.



*Yan Maliski*

# CELEBRATION AND RECOGNITION AT KOTANLI RESTAURANT



*Tohid Məlikzadə*

On January 31, a grand celebration was hosted for the attendees of the conference at the Kotanli restaurant. Hamlet Isakhanli, Ambassador Rafal Poborski of the Republic of Poland to Azerbaijan, Jan Maliski from Warsaw University, Selcuk Onal from Türkiye, and others delivered speeches during the artistic and musical dinner, highlighting the significance of the ongoing conference and its exceptional organization.

An award ceremony took place during the banquet. VMF Holding presented watches featuring the photo and signature of Mohammad Amin Rasulzadeh to Selcuk Onal, Sabahaddin Shimshir, Salavat Isakov from Russia, and Tohid Malikzadeh from Iran,Assoc.Prof. of Warsaw University Shahla Kazimova.

The evening concluded with the participants in high spirits.



*Şəhla Kazımova*

# “II BEYNƏLXALQ RƏSULZADƏ QİRAƏTLƏRİ” ADLI BEYNƏLXALQ ELMİ KONFRANSIN AÇILIŞ MƏRASİMİ

# OPENING CEREMONY OF "II INTERNATIONAL RASULZADE READINGS” CONFERENCE

Yanvarın 30-da Holiday Inn hotelində “II Beynəlxalq Rəsulzadə Qiraətləri” adlı Beynəlxalq Elmi Konfransın açılış mərasimi oldu. Mərasimdə Azərbaycanın və bir sıra xarici olkələrin tanınmış elm xadimləri, səfirliklərin nümayəndələri, dövlət rəsmiləri, sənət adamları, ziyalılar iştirak edirdilər.

Azərbaycan Respublikasının Dövlət Himni ifa olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında 30 dekabr 2023-cü il tarixli Sərəncamı oxundu.

Azərbaycanın Xalq artisti Alim Qasımov konfrans iştirakçılarını gözəl ifası ilə salamladı.

Konfrans təşkilatçılarının nümayəndələri – Solmaz Rüstəmova -Tohidi (“Rəsulzadə Ev - Muzeyi” İctimai Qrupu), Nailə Vəlixanlı (Milli Azərbaycan Tarixi Muzeyi), Hamlet İsaxanlı (Xəzər Universiteti), Yan Maliski (Varşava Universiteti), Necdet Ünüvar (Ankara Universiteti, onlayn), Vahid Mustafayev (VMF Holdinq) çıxış etdilər. Çıxışlarda görkəmli dövlət xadimi və zəngin məzmunlu siyasi və ədəbi əsərlərin müəllifi M. Ə. Rəsulzadənin çoxşaxəli irsinin tədqiqi və öyrənilməsinin davam etdirilməsi üçün belə konfransların və digər tədbirlərin keçirilməsinin vacibliyi vurğulandı.

Sonra iştirakçılara “Rəsulzadə Ev- Muzeyi” İctimai Qrupu tərəfindən virtual formatda hazırlanmış Ev-müzeyin layihəsi təqdim olundu.

AMEA prezidenti akademik İsa Həbibbəyli çıxışında nəzərə çatdırdı ki, Azərbaycan Xalq Cümhuriyyəti banilərinin şərəfinə Bakıda abidə uçaldılmış və xatirələri yad edilməkdədir. Akademik qeyd etdi ki, AMEA-nın bir sıra institutlarında onların irsi tədqiq olunur. “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzində isə Cümhuriyyət şöbəsi fəaliyyət

On January 30, the opening ceremony of the International Scientific Conference "II International Rasulzade Readings" unfolded at the Holiday Inn hotel, drawing renowned scholars from Azerbaijan and various foreign nations, along with embassy representatives, government officials, artists, and intellectuals.

After the National Anthem of the Republic of Azerbaijan was played, the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated December 30, 2023 on celebrating the 140th anniversary of Mahammad Amin Rasulzade was read.

People's Artist of Azerbaijan Alim Gasimov welcomed the attendees with musical performances.

Representatives of the conference organizers, including Solmaz Rustamova-Tohidi ("Rasulzade House - Museum" Public Group), Naila Valikhanli (National Azerbaijan History Museum), Hamlet Isakhnli (Khazar University), Yan Maliski (Warsaw University), Necdet Unuvar (Ankara University, online), and Vahid Mustafayev (VMF Holding), delivered speeches emphasizing the importance of hosting such conferences to further research and study the diverse legacy of M.A. Rasulzade, an eminent statesman and author of a rich collection of political and literary works.

The "Rasulzade House-Museum" Public Group presented a virtual format project of the House-museum to the participants.

Academician Isa Habibbayli, president of ANAS, noted in his speech that a monument was erected in Baku in honor of the founders of the Azerbaijan Democratic Republic and their memories are being commemorated. The academician noted that their heritage is being studied in a number of institutes of ANAS. The

göstərir.

M. Ə. Rəsulzadəyə siyasi mühacirət dövrü sığınacaq vermiş ölkələrin (Türkiyə, Polşa, Almaniya, Rumıniya) Azərbaycandakı səfirlikləri adından Polşa səfiri Rafal Poborski çıxış etdi. Dedi ki, Azərbaycanın bu görkəmli xadimi Avropadakı mühacirət həyatında olduğu hər bir ölkədə öz fəaliyyəti ilə iz qoyubsa da, Polşa mühitinə və həyatına daha dərindən sirayət edərək, ömür-gün yoldaçını da burada seçmiş, onunla həyatının sonuna qədər xoşbəxt ömür sürmüşdür. Buna görə də, polyaklar onu özlərinə daha çox doğma hesab etməkdə haqlıdırlar. Əsərləri də Polşada daha geniş tədqiq olunur.

Xarici iştirakçılar, o cümlədən M. Ə. Rəsulzadə irsinin tədqiqatçıları adından Səbahəddin Şimşir (Türkiyə) və Georgi Mamulia (Fransa) çıxış edərək, vurğuladılar ki, Rəsulzadə irsi vətənindən uzaqlarda da tədqiq olunur və bu da, şübhəsiz, həmin ölkələrin elminə də yeni məzmun qatır.

Konfransda Xalq artisi, Üzeyir Hacıbəyli Ev-Muzeyinin direktoru, bəstəkar Sərdar Fərəcov çıxış edərək, Üzeyir Hacıbəyli ilə Məhəmməd Əmin Rəsulzadənin dostluq və işgüzar əlaqələrindən danışdı.

Azərbaycan ziyalıları adından Əməkdar incəsənət xadimi, Prof. Zümrüd Axundova - Dadaşzadə çıxış etdi. O, nəzərə çatdırdı ki, M.Ə.Rəsulzadə AXC qurucularından biri, dərin məzmunlu ədəbi və publisistik əsərlərin müəllifi olması ilə yanaşı, həm də görkəmli milli sima kimi qəbul edilir.

M.Ə. Rəsulzadə ailəsi adından nəvəsi Rais Rəsulzadə çıxış etdi və konfrans təşkilatçılarına təşəkkürünü bildirərək görkəmli siyasi xadimin irsinə və xatirəsinə son illərdə artmaqda olan diqqətə görə və məlum Sərəncamın imzalanmasına görə şəxsən Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi.

Qeyd edək ki, bu konfransın açılış mərasimi də Solmaz Rüstəmova-Tohidinin moderatorluğu ilə keçmişdir.

Açılış mərasiminin sonunda isə iştirakçılara Xəzər Universiteti Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) konserti təqdim olundu.

"Azerbaijan National Encyclopedia" Scientific Center operates the Republic Department.

Polish Ambassador Rafal Poborski spoke on behalf of the embassies in Azerbaijan of the countries (Türkiye, Poland, Germany, Romania) that provided refuge to M.A. Rasulzade during the period of political exile. The ambassador stated that although Rasulzade made a significant impact in every country he visited during his emigration in Europe, he had a profound connection to the environment and life of Poland. Rasulzade chose Poland as his lifelong companion, living a happy life there until the end. Consequently, Poles have a justified claim to consider him more their own. His works are also extensively studied in Poland.

Foreign participants, including Sabahaddin Shimshir (Türkiye) and George Mamulia (France), represented researchers exploring M.A. Rasulzade's legacy. They stressed that Rasulzade's heritage is being studied beyond his homeland, contributing new perspectives to the scientific discourse of their respective countries. At the conference, People's Artist, director of Uzeyir Hachibeyli House-Museum, and composer Sardar Farajov shared insights into the friendship and business relations between Uzeyir Hachibeyli and Mahammad Amin Rasulzade.

Honored art worker and Prof. Zumrud Akhundova-Dadashzade spoke on behalf of Azerbaijani intellectuals and participants. She highlighted Rasulzade's role as one of the founders of ADR, emphasizing his profound literary and journalistic works, casting him as a significant national figure.

Representing the Rasulzade family, Rais Rasulzade expressed gratitude to the conference organizers and extended personal thanks to Mr. President for the increased attention to Rasulzade's legacy in recent years, acknowledging the signing of the notable Decree.

It's worth noting that Solmaz Rustamova-Tohidi moderated the opening ceremony, as she did for several other events during the conference.

The participants were treated to a concert by the Khazar University Chamber Orchestra at the conclusion of the opening ceremony. The orchestra's artistic director, head of the university's Music and Art Department, honored teacher, and pianist Zulfiyya Sadigova played a key role in the performance.

# KONFRANSIN İŞİ AZƏRBAYCAN KÜLTÜR DƏRNƏYİNİN 75 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏDBİRLƏ YEKUNLAŞDI

# CONFERENCE CONCLUDES WITH CELEBRATION OF AZERBAIJAN CULTURAL ASSOCIATION'S 75TH ANNIVERSARY



Selcuk Önal Qulu Məhərrəmli

The conference's final day, February 1, featured a significant gathering at the National Azerbaijan History Museum. This event commemorated the 75th anniversary of the establishment of the Azerbaijan Cultural Association by M.A. Rasulzade on February 1, 1949, in Ankara.

During the gathering, Selcuk Onal, a member of the Azerbaijan Cultural Association's Board of Directors, delivered a presentation titled "Mahammed Amin Rasulzadeh and his ideological center: the Azerbaijan Cultural Association. "Various speeches were given in response to the presentation.

Konfransın sonuncu iş günündə - fevralın 1-də əsas tədbir M.Ə. Rəsulzadənin 1949-cu il fevralın 1-də Ankarada yaratdığı Azərbaycan Kültür Dərnəyinin 75 illiyi münasibətilə Milli Azərbaycan Tarixi Muzeyində keçirilmiş tədbir oldu.

Tədbirdə Azərbaycan Kültür Dərnəyinin İdarə Heyətinin üzvü Selcuk Önal "Məhəmməd Əmin Rəsulzadə və onun məfkurə ocağı: Azərbaycan Kültür Dərnəyi" mövzusunda məruzə etdi. Məruzə ətrafında çıxışlar oldu.




*Milli Azərbaycan Tarixi Muzeyinin direktor müavini Fərhad Cabbarov*

Həmin gün konfransın elmi işinə də yekun vuruldu. Qeyd olundu ki, konfransın dörd panelində Azərbaycandan və doqquz xarici (Türkiyə, Polşa, Rusiya, İsveç, İran, Almaniya, Fransa, Ukrayna, ABŞ) olkədən otuzdan artıq mütəxəssis müxtəlif mövzularda məruzə etmişlər.

"II Beynəlxalq Rəsulzadə Qiraətləri" adlı Beynəlxalq Elmi Konfrans Azərbaycan xalqının dahi oğlunun xatirəsinə layiq yüksək səviyyədə keçirilmişdir.



*Nailə Vəlixanlı* *Təhid Məlikzadə*

The scientific proceedings of the conference were finalized on that particular day. It was noted that over thirty specialists from Azerbaijan and nine other nations (including Türkiye, Poland, Russia, Sweden, Iran, Germany, France, Ukraine, and the USA) presented reports on diverse subjects across four conference panels.

The "II International Rasulzade Readings" Conference was conducted at a high level worthy befitting the legacy of the esteemed Azerbaijani figure.



*Firdovsiyyə Əhmədova*



# MİLLƏT SEVGİSİ VƏ ƏDƏBİYYAT

*"II Beynəlxalq Rəsulzadə Qiraətləri":*
*Hamlet İsaxanlı*

Məhəmməd Əmin Rəsulzadəni bir qayda olaraq siyasətçi, ictimai-siyasi xadim, jurnalist kimi tanıyan geniş ictimaiyyət, o cümlədən tədqiqatçılar onun yalnız bu sahələrdə fəaliyyətini qeyd etdikdən sonra həm də ədəbiyyata böyük maraq göstərdiyini, özünün bədii əsərlər yazdığını, və əlbəttə ki, son və ən möhtəşəm tədqiqat əsəri kimi ömrünün ahıl çağında qələmə aldığı "Azərbaycan şairi Nizami" fundamental tədqiqatını yada salırlar. Rəsulzadəni siyasi publisist ilə bərabər səviyyədə ədəbiyyat bilicisi və hətta peşəkar ədəbiyyatşünas kimi görən tədqiqatçılar isə, təbii ki, bu dəyərləndirmələrini sübut etməyə çalışırlar. Təsadüfi deyil ki, "II ...Qiraətlər"in "Ədəbiyyat. Dil. Mədəniyyət" adlanan fəslinə Rəsulzadənin ədəbi görüşləri və ümumən ədəbiyyatçı kimi fəaliyyətinə dair bir neçə həm də fundamental sayılacaq məqalələr daxil edilmişdir.

"Məhəmməd Əmin Rəsulzadə: Millət sevgisi və Ədəbiyyat" adlanan birinci məqalənin müəllifi fizika-riyaziyyat elmləri doktoru, professor, Xəzər Universitetinin təsisçisi, tanınmış ziyalı, intellektual və nəhayət şair Hamlet İsaxanlıdır.

(Hamlet İsaxanlı, "Məhəmməd Əmin Rəsulzadə: Millət sevgisi və Ədəbiyyat"/ "Muhammad Emin Rasulzade: Love of the Nation and Literature"/ "Мамед Эмин Расулзаде: Любовь к нации и Литература", səh./p./ стр. 534-566, II Beynəlxalq Rəsulzadə Qiraətləri/ The II İnternational Readings in Memoriam of M,E.Resulzade/ II Международные чтения, посвященные М.Э.Расулзаде, Бакı 2024)

Adından da göründüyü kimi, Hamlet müəllim Rəsulzadənin ədəbi yaradıcılığını onun ictimai-siyasi görüşləri fonunda araşdırmağa üstünlük verib və olduqca maraqlı bir araşdırma aparıb. İlk növbədə böyük siyasət və dövlət adamı olan Məhəmməd Əmin Rəsulzadənin ədəbiyyata gənc yaşlarından maraq göstərdiyini, əsl qələm əhli olduğunu və siyasi-ictimai baxışları ilə yanaşı bədii yaradıcılığını da mətbuat səhifələrinə çıxardığını qeyd edən müəllifə görə Rəsulzadə sonrakı fəaliyyətində siyasi publisistikası ilə müqayisədə bədii yaradıcılığa xeyli az yer ayırsa da, onun ictimai-siyasi əsərləri də tarix, ədəbiyyat və mədəniyyət əsaslı idi, bu yolla o, dövrün çoxrəngli mənzərəsini daha dərindən və daha anlaşılan şəkildə təsvir edə bilirdi.

Maraqlı bir ştrix: Hamlet İsaxanlı bir neçə hissədən ibarət iri həcmli məqaləsinin əvvəlində Rəsulzadənin ədəbiyyata gəlişinin səbəblərini açmağa cəhd edir. Onun "duyğulu və həssas" bir insan olduğunu, gənc yaşlarında şərq tarixi, mədəniyyəti, ədəbiyyatı və dillərini yaxşı öyrəndiyini və "belə gəncin tarixçiliyə və bədii yaradıcılığa meyl etməsini" təbii saymaqla yanaşı, burada digər amillərin də mühüm rol oynadığına diqqət çəkir: "Yaşadığı cəmiyyətin zəka qabiliyyətinin elmi və texnoloji sahədə boy göstərməsi üçün münbit mühit yoxdur, dəbdə olan bədii yaradıcılıq, ilk növbədə şeir və dram idi, teatr, xüsusilə musiqili teatr da bu ədəbi həyat

tərzini gücləndirirdi." Təsadüfi deyil ki, gənc Məhəmməd Əmin də bədii yaradıcılığa şeirlə, kiçik səhnə əsərləri yazmaqla başlayır.

Məqalənin "M.Ə. Rəsulzadə - şair və dramaturq" adlanan hissəsi də bu mövzuya həsr olunur. Daha sonra "M.Ə. Rəsulzadənin yaradıcı tərcümə fəaliyyəti", "Rəsulzadə - ədəbiyyatşünas", "Rusiya Azərbaycanında ədəbiyyat və mədəniyyət", "Sovet dövrü Azərbaycan ədəbiyyatı haqqında" kimi başlıqlar altında Müəllif Rəsulzadənin ədəbiyyat sahəsində ilk addımlarından və qələm təcrübəsindən başlayaraq ciddi ədəbiyyatşünas – tənqidçi kimi yetişməsinə qədər keçdiyi yolu, bu zaman mütəxəssis səviyyəsində diqqətini hansı məsələlərə yönəltdiyi, hansı ədib, şair və yazıçıların əsərlərinə və mövzulara maraq göstərdiyi və bir çox digər məsələləri bütün incəliklərinə qədər açıqlayır. Rəsulzadənin ədəbiyyata və ümumiyyətlə ədəbi proseslərə olan marağının siyasi mühacirət illərində də azalmadığını vurğulayan H.İsaxanlı bunu onun Azərbaycan xalqının öz qədim və şərəfli keçmişini, uzaq və yaxın tarixini, xarakterini, ruhunu, dilini və düşüncəsini məhz ədəbiyyatda əks etdirdiyi kimi inamı ilə izah edir. Təsadüfi deyil ki, 1930-cu illərdə Avropa ölkələrində Azərbaycanı qeyri-siyasi baxımdan tanıtmaq üçün Rəsulzadə məhz Azərbaycan ədəbiyyatı haqqında mühazirələr oxumağa üstünlük verir. II dünya müharibəsi illərində əsir azərbaycanlılarla görüşlərində bu yeni nəsillərin öz ədəbiyyatına yaxından bələd olması, yaddaşdan şeirlər deməsi həssas Rəsulzadəni çox sevindirir və bu faktı çox obyektiv qiymətləndirir. Hamlet İsaxanlının Rəsulzadənin ədəbi görüşləri haqda təhlili o qədər geniş məsələləri əhatə edir ki, bu kiçik təqdimatda onları seçib qeyd etmək çox çətindir. Bunun üçün, eləcə də riyaziyyatçı-şair İsaxanlının görmə bucağının peşəkar ədəbiyyatşünasların tədqiqatlarından nə ilə fərqləndiyini bilmək üçün mütləq məqaləni oxumaq lazımdır.

H.İsaxanlının məqaləsinin sonuncu – "Rəsulzadə-Nizamişünas" adlanan hissəsi onun Nizami haqqında monoqrafiyasının dərin və ətraflı təhlilinə həsr olunub. Bu fəsil Hamlet müəllimin özünü də Nizami dövrünü, şəxsiyyətini, poeziyasını dərindən bilən bir mütəxəssis kimi təqdim edir. Belə ki, özlüyündə ayrıca bir məqalə sayılacaq bu hissədə Müəllif Rəsulzadənin hətta Nizaminin də yaradıcılığını milli, etnik, siyasi motivlər baxımından nəzərdən keçirdiyinə diqqət yetirir və çox maraqlı nəticələr alır. Onlardan yalnız birini nümunə gətirməklə Rəsulzadənin "güclü ədəbiyyatşünas" kimi qiymətləndirildiyi bu kiçik təqdimatı bitirirəm:

"Rəsulzadə sevdiyi böyük şairə həsr olunmuş əsər üzərində işləyərkən şair kimi cuşa gəlmiş və 1945-ci il, 25-28 iyulda Bavariyada, Şvarsenefelddə əsərə poetik xülasə yazmışdır.

*İstənirsə bizdən qısa nəticə*
*Anlatdırır Nizamiyi böylecə:*
- deyə son tezislərini söyləyir:
*Farsçılığı yox onun*
*Türklüyə çox bağlıdır.*
*Qafqaz deyə zövq alır*
*Rusdan canı dağlıdır.*
*Gözəl qadın tipləri*
*Ya türk, ya Qafqazlıdır.*
*Şübhəsi yoxdur ki, o,*
*Bir azərbaycanlıdır!"*

*Məqalənin müəllifi*: **Solmaz Rüstəmova-Tohidi**

*https://anspress.com/mill%C9%99t-sevgisi-v%C9%99-%C6%8Fd%C9%99biyyat*

## GÜRCÜ ƏDƏBİYYATININ ÖYRƏNİLMƏSİ İLƏ BAĞLI SEMİNAR

## GEORGIAN LITERARY INFLUENCE EXPLORED AT KHAZAR UNIVERSITY




*İrma Ratiani*

2023-cü il dekabrın 6-da Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentində dünya ədəbi ictimaiyyətində gürcü ədəbiyyatının öyrənilməsinə dair seminar keçirilmişdir. Gürcüstan Milli Elm Fondunun dəstəyi ilə keçirilən tədbirdə ədəbiyyat sahəsinin görkəmli nümayəndələrindən ibarət nüfuzlu qonaq məruzəçilər iştirak etmişdir.

Qonaq mühazirəçi Prof. İrma Ratiani mühazirəsində keçmiş Sovet İttifaqı dövründə qırmızı terror və təcrid altında olan gürcü ədəbiyyatının təkamülünün incəliklərinə dərindən nəzər salmış, Prof. Makam Elbakidze isə "Şota Rustaveli və Nizami Gəncəvi - mədəniyyət kəsişmələri" mövzusunda mühazirəsini təqdim etmişdir.



*İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova*



*Makam Elbakidze*

On December 6, 2023 Khazar University English Language and Literature Department hosted a Seminar exploring Georgian literature in the World literary community. Supported by the Georgian National Science Foundation, the event featured esteemed guest speakers shedding light on the literary realm. The Guest Lecturer Prof. Irma Ratiani, engaged the audience with her lecture on Georgian Literature against the Red Terror and Isolation, delving into the nuances of Georgian literature's evolution during Former Soviet Union Period. Meanwhile, Prof. Makam Elbaqidze delivered her speech on Shota Rustaveli and Nizami Ganjavi - Cultural Intersections.



*Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova*

# "MÜƏLLİMLƏRİN MOTİVASİYASINI YÜKSƏK SAXLAMAQ ÜÇÜN GÖZLƏNTİLƏRİ AŞIN!" MÖVZUSUNDA SEMİNAR

# WORKSHOP ON "GO THE EXTRA MILE!.. MAINTAINING TEACHER'S MOTIVATION"






*Saulet Alpysbayeva*

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamenti "Müəllimlərin motivasiyasını yüksək saxlamaq üçün gözləntiləri aşın!" mövzusunda seminar keçirdi. Seminarı Qazaxıstanın Abılay Xan adına Qazaxıstan Beynəlxalq Münasibətlər və Dünya Dilləri Universitetinin mühazirəçisi və koordinatoru Saulet Alpysbayeva apardı.

Tədbir dekabrın 8-də Xəzər Universitetinin Nərimanov kampusunda keçirildi.

English Language and Literature Department of Khazar University held a Workshop on "Go the Extra mile!... Maintaining teacher's motivation". The workshop was conducted by Saulet Alpysbayeva the lecturer and coordinator of the International Affairs Office, Kazakh Ablai Khan UIR & WL (Kazakhstan).

The event took place on December 8, at Khazar University, Narimanov Campus.



*Milana Abbasova* *Fəxrəddin Veysəlli*

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ MAGİSTR MÜDAFİƏSİ

# MASTER THESIS DEFENSE AT ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT

2023-cü il dekabrın 14-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin magistrantları Səbinə Namazova, Gülşən Paşayeva, Könül Hüseynova (Dilçilik) və Şahmar Məmmədov, Səbinə Həsənova, Səbinə Əzizova, Nərmin Quluzadə (Tərcümə) aşağıdakı mövzularda dissertasiya işlərini müdafiə etdilər: "Azərbaycan dilini qabaqcıl səviyyədə öyrənən tələbələrin yazılı işlərinin koqnitiv-linqvistik təhlili", "Şəhər və şəhərətrafı dövlət məktəblərində qrammatika tədrisinin keyfiyyət müqayisəsi", "Stiveni Meyer`in "Alatoran" əsərinin Azərbaycan dilindəki iki tərcüməsinin müqayisəsi: metaforik ifadələrin tərcüməsi", "Azərbaycan poeziyasının ingilis dilinə tərcüməsinin estetik aspektləri", "XXI əsrdə ingilis dilindən Azərbaycan dilinə tibbi



*Könül Hüseynova*

On December 14, 2023 Sabina Namazova, Gulshan Pashayeva, Konul Huseynova the MA candidates of the Department of English Language and Literature at Khazar University majoring in Linguistics, and Shahmar Mammadov, Sabina Hasanova, Sabina Azizova, Narmin Guluzadeh




*Səbinə Namazova*

the students majoring in Translation defended their master's dissertations entitled "A Cognitive-linguistic Analysis of Advanced Azerbaijani Learners' Written Output", "A Qualitative Comparison of Grammar Teaching in urban and subrural public schools", "Translating Metaphorical Expressions: Comparison of the Two Azerbaijani Translations of "Twilight" by Stephenie Meyer", "Aesthetic Issues in Translation of Azerbaijani Poetry into English", "Challenges of Medical Translation in the 21st Century from English



*Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin professoru Hüseynağa Rzayev*

*Azərbaycan Dillər Universiteti Ümumi dilçilik kafedrasının müdiri Azad Məmmədov*

tərcümənin çətinlikləri", "İngiliscə filmlərin Azərbaycan dilinə dublyajı və subtitrlə tərcüməsi zamanı tərcüməçilərin qarşılaşdığı əsas çətinliklər", "Azərbaycanda ingilis dilinin xarici dil kimi tədrisi kontekstində mədəniyyətlərarası kommunikativ səriştənin inkişaf etdirilməsinin çətinlikləri və zəruriliyi: müəllim və şagirdlərin baxışları".

Müdafiə Prof. Fəxrəddin Veysəllinin rəhbərliyi ilə keçib. Müdafiədə İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova və departamentin professor-müəllim heyəti iştirak edib. Qaydalara uyğun olaraq, namizədlərin çıxışlarından sonra sual-cavab sessiyası keçirilib. Sonda qiymətləndirmə aparılıb, müdafiə uğurla başa çatıb.




*Gülşən Paşayeva*

into Azerbaijani", "Main challenges experienced by translators when dubbing and subtitling English films into Azerbaijani" and "Challenges and necessities of developing intercultural communicative competence in Azerbaijani EFL context: Teachers and learners' perspectives".



*Səbinə Həsənova*

The Defense was led by Prof. Fakhraddin Veysalli. Dr. Milana Abbasova, the head of the English Language and Literature Department, and faculty members of the department took part in the defense. In accordance with the rules, question-and-answer session was held after the speeches of the candidates. In the end, the assessment was made, and the defense ended successfully.

# TƏLƏBƏ VƏ MÜƏLLİM BİRLİYİNİN RƏMZİ OLAN "XƏZƏR"İN İŞIĞINDA" ADLI SƏRGİ



*Hamlet İsaxanlı*



# EXHIBITION "IN THE LIGHT OF "KHAZAR", SYMBOL OF STUDENT AND TEACHER UNION

2023-cü il dekabrın 26-da Xəzər Universitetinin Mərmər zalında Memarlıq və dizayn departamentinin təşkilatçılığı ilə Tələbə və müəllim birliyinin rəmzi olan "Xəzər"in işığında" adlı sərgi nümayiş etdirildi. Tədbiri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının

On December 26, 2023, the Department of Architecture and Design at Khazar University organized an exhibition titled "In the Light of "Khazar" in the Marble Hall. Prof. Acad. Hamlet Isakhanli, the university's founder and chairman of the Board of Directors and Trustees, inau-



*Şəfiqə Yusupova*

sədri Prof. Akad. Hamlet İsaxanlı açaraq, müəllimlərə və tələbələrə yaradıcılıq uğurları diləyib.

Sonra Əməkdar müəllim, rəssam Yaşar Səmədov, eləcə də müəllimlər Şəfiqə Yusupova və Nərmin Qasımova sərgi haqqında öz təəssüratlarını bölüşüblər.

Sərginin keçirilməsində əsas məqsəd tələbələrə dəstək olmaq, onları yaradıcılıq sahəsində ruhlandırmaq idi. Təsviri İncə-



*Nərmin Qasımova*

sənət müəllimliyi ixtisasının ikinci kurs tələbəsi Nazlı Əsgərova müxtəlif mövzu və üslublarda ərsəyə gətirdiyi rəsm əsərlərini sərgi iştirakçılarına təqdim edib və tələbələrə

*(Ardı səh.22 - də)*



*rəssam Yaşar Səmədov*

gurated the event, extending best wishes for success to both faculty members and students in their creative pursuits.

Then Honored teacher and artist Yashar Samadov, as well as teachers Shafiga Yusupova and Narmin Gasimova shared their thoughts on the exhibition, emphasizing its primary goal of supporting and inspiring students in the realm of creativity. Second-year Fine Arts student Nazli Asgarova showcased her diverse paintings at the exhibition, expressing gratitude to the department's management for their attention to students.

Faculty members including Hasanaga Ha-

*(To be continued page 22)*



*İsaxan İsaxanlı*



Nazlı Əsgərova

sanov, Mehdi Samadi, Shafiga Yusupova, Iskander Mammadov, Nigar Aliyeva, design teacher Narmin Gasimova, and art critic Assoc. Prof. Khazar Zeynalov also exhibited their artworks, covering various subjects and demonstrating support for emerging talents.

The exhibition garnered significant interest from guests, students, and faculty members in attendance.

To symbolize the unity of students and teachers, a thank-you plaque named "In the Light of "Khazar" was presented at the exhibition's conclusion.

göstərilən diqqətə görə departament rəhbərliyinə təşəkkürünü bildirib.

Memarlıq və dizayn departamentinin Təsviri sənət müəllimləri Həsənağa Həsənov, Mehdi Samadi, Şəfiqə Yusupova, İskəndər Məmmədov, Nigar Əliyeva, dizayn müəllimi Nərmin Qasımova və təsviri sənət tarixi müəllimi, sənətşünas Dos. Xəzər Zeynalov da müxtəlif mövzularda ərsəyə gətirdikləri rəsm əsərlərini təqdim edərək, gənc istedadlara dəstək nümayiş etdiriblər.



İskəndər Məmmədov

Tədbirdə iştirak edən qonaqlar, tələbə və müəllim heyəti sərgiyə böyük maraq nümayiş etdiriblər.

"Xəzər"in İşığında" adlı Tələbə və müəllim birliyinin rəmzi olan sərginin sonunda təşəkkür plaketi təqdim olundu.

# TƏBRİZ TİBB UNİVERSİTETİNİN PROFESSORU SOODABEH DAVARAN`IN "XƏZƏR"DƏ SEMİNARI

# SEMINAR BY TABRIZ MEDICAL UNIVERSITY PROFESSOR SOODABEH DAVARAN AT KHAZAR UNIVERSITY



*Soodabeh Davaran, Hamlet İsaxanlı*

2023-cü il dekabrın 26-da Həyat elmləri departamentinin təşkilatçılığı ilə Təbriz Tibb Universitetinin professoru Soodabeh Davaran Xəzər Universitetində "Hüceyrə əsaslı biomühəndislik və toxuma regenerasiyası üçün nanomateriallar adlı seminar keçirmişdir.

Tədbiri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı açaraq, biomühəndislik tədqiqatların və bu kimi tədqiqatlarda əməkdaşlığın vacibliyini vurğulamışdır.

Sonra seminar Prof. S.Davaran`ın toxuma mühəndisliyi və regenerativ tibbdə nanomateriallarn, həmçinin yaraların sağalmasında təbii hidrogellərin istifadəsi, nanotibb haqqında geniş məruzəsi ilə davam etmişdir.

Seminarda universitetin akademik heyəti və tələbələr fəal iştirak etmiş, mövzu ətrafında maraqlı fikirlər səslənmiş, həmçinin gələcək əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

On December 26, 2023, a seminar titled "Advanced Nanomaterials for Cell-Based Bioengineering and Tissue Regeneration" was conducted at Khazar University by Professor Soodabeh Davaran from Tabriz Medical University organized by the Department of Life Sciences.

Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, inaugurated the event, underscoring the significance of bioengineering research and collaboration in this field. The seminar proceeded with Prof. S. Davaran delivering a comprehensive presentation on nanomedicine, the application of nanomaterials in tissue engineering and regenerative medicine, and the use of natural hydrogels in wound healing.

The university's academic staff and students actively engaged in the seminar, interesting ideas about the topic were voiced, and future cooperation issues were discussed.





# ƏCNƏBİ TƏLƏBƏLƏR KLUBUNDA YENİ İL HƏFTƏSİ

2023-cü il dekabrın 25-29-da Əcnəbi Tələbələr Klubunda "Yeni il" həftəsi qeyd olunub.

Həftənin ilk günü - dekabrın 25-də əcnəbi və yerli tələbələr üçün vörkşop keçirildi. Vörkşop zamanı tələbələr komanda şəklində işləyərək, yeni ilin gəlişi ilə bağlı rəsmlər çəkdilər, sonra isə müxtəlif rəngli kağızlardan oriqamilər hazırladılar.

Dekabrın 27-də "Secret Santa" oyunu təşkil olundu. Oyunun məqsədi yerli və xarici tələbələr arasında hədiyyə mübadiləsi aparmaq idi. Günün ikinci yarısında isə müxtəlif oyunlar keçirilərək, mahnılar ifa edildi.



Həftənin son günü - dekabrın 29-da tələbələr üçün film günü keçirildi. Günün filmi "Evdə Tək 1" idi. Filmdən öncə tələbələr tərəfindən müxtəlif formalı peçenyelər rəngarəng kremlərlə bəzədildi, sonra isə hazırlanmış peçenye və çay ilə bərabər film izlənildi.

Həftə ərzində əcnəbi və yerli tələbələr ilə bərabər klubun prezidenti Alisa Nazirzadə, sosial media meneceri Nigar Əsgərova, tədbirlər üzrə koordinatorlar İlahə Məmmədova və Jalə Zeynalova, layihələr üzrə menecer Aysu Məmmədova və koordinator Nərgiz İsmayıllı fəal iştirak etdilər.





# NEW YEAR'S WEEK AT THE INTERNATIONAL STUDENTS CLUB

From December 25 to 29, 2023, the International Students Club celebrated the "New Year" week. The week commenced with a workshop on December 25, where both local and international students collaboratively created pictures depicting the approaching new year and engaged in crafting origami from various colored papers.

On December 27, "Secret Santa" was organized, the purpose of which, the exchange of gifts among local and international students. The latter part of the day featured various games and musical performances. The week concluded on December 29 with a film day, featuring the screening of "Home Alone 1" for the students. Before the movie, students decorated cookies in various shapes using colorful creams, and then enjoyed the film accompanied by cookies and tea.

Throughout the week, the active participation of not only international and local students but also club president Alisa Nazirzade, social media manager Nigar Asgarova, event coordinators Ilaha Mammadova and Jala Zeynalova, project manager Aysu Mammadova, and coordinator Nargiz Ismayilli was notable.




JYSK




## BAKIDA DEMİRÖREN MEDYA`NIN YAYIMLADIĞI QARABAĞA AİD KİTABIN TƏQDİMATI

Yanvarın 6-da Xəzər Universitetinin təşkilatçılığı ilə Bakıda Türkiyənin nüfuzlu CNN Türk, Kanal D, "Hürriyet", "Milliyet" kimi media qurumlarını tərkibində birləşdirən Demirören Medya`dan gələn heyətlə Azərbaycanın bir qrup dövlət adamları və alimlərinin görüşü olub. Türkiyənin Azərbaycandakı səfiri Doç.Dr. Cahit Bağçı, səfirliyin mədəniyyət müşaviri Prof. Dr. Muhittin Macid`in də iştirak etdiyi görüşdə Demirören qrupunun hazırladığı, İstanbulda çap olunmuş "Karabağ Sana Kavuştuk" kitabının təqdimatı da keçirilib.

Tədbirdə kitabda məqalələri yer alan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu da iştirak ediblər. Prof.Akad. Hamlet İsaxanlı kitabın önəmi, Qarabağın işğaldan azad edilməsi prosesinin region üçün tarixi əhəmmiyyəti, Türkiyə-Azərbaycan qardaşlığının bu zəfərin əldə edilməsindəki rolu ilə bağlı geniş çıxış edib.

Sonda Türkiyənin Azərbaycandakı səfirliyinin və Demirören Medya`nın təmsilçiləri qonaqlara kitablar təqdim ediblər

## PRESENTATION OF THE BOOK ABOUT KARABAKH PUBLISHED BY DEMIROREN MEDIA IN BAKU

On January 6, Khazar University organized a meeting where Azerbaijani statesmen and scientists engaged with a delegation from Demirören Media, encompassing Türkiye's esteemed CNN Türk, Kanal D, "Hürriyet," and "Milliyet" media organizations.

The gathering featured the presentation of a book entitled "Karabakh, We Have Reached You" produced by the Demirören group in Istanbul, and it was attended by notable figures, including the Turkish ambassador to Azerbaijan Assoc. Prof. Cahit Bagci and cultural adviser Prof. Dr. Muhittin Majid from the embassy.

Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, and Assoc. Prof. Telman Nusratoghlu, head of the university's History and Archaeology Department, were also present. Prof. Acad. Hamlet Isakhanli delivered an extensive speech emphasizing the book's significance, the historical importance of liberating Karabakh, and the role of the Turkish-Azerbaijani brotherhood in achieving this victory.

The event concluded with representatives from the Turkish Embassy in Azerbaijan and Demirören Media presenting books to the guests.



*Muhittin Macid, Hamlet İsaxanlı,Cahit Bağçı*

## PROF. AKAD.HAMLET İSAXANLI AKADEMİK KAMAL TALIBZADƏNİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ TƏDBİRDƏ

Yanvarın 10-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumla Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Muzey Mərkəzində Şöhrət ordenli akademik Kamal Talıbzadənin 100 illik yubileyi münasibətilə keçirilən "Məni Şaiqdən ayırmayın – Kamal Talıbzadə" adlı tədbirdə iştirak etmişdir. O, öz çıxışında görkəmli ədəbiyyatşünasın elmi fəaliyyəti və şəxsiyyəti haqqında söhbət açaraq, onunla bağlı xatirələrini danışmışdır.

## PROF. ACAD. HAMLET ISAKHANLI ATTENDS ACADEMICIAN KAMAL TALIBZADE'S CENTENNIAL CELEBRATION EVENT

On January 10, Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, participated in the event called "Don't separate me from Shaig - Kemal Talibzade" held at the Museum Center of the Ministry of Culture of the Republic of Azerbaijan on the occasion of the 100th anniversary of academician Kemal Talibzade honored with the Order of Glory. During his address, he talked about the scientific contributions and personal characteristics of the esteemed literary critic, sharing his own recollections of their interactions.




*BDU-nun redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru Ülkər Talıbzadə (Kamal Talıbzadənin qızı), "Borçalı" nəşriyyatının baş direktoru Müşfiq Borçalı, Hamlet İsaxanlı*

# "XƏZƏR"DƏ YUBİLEY



*Əlirza Balayev* *İradə Xəlilova*

*Yanvarın 9-da Xəzər Universitetində "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, Əməkdar jurnalist Əlirza Balayevin anadan olmasının 80 illiyi münasibətilə yubiley tədbiri keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları iştirak edirdilər.*

*Tədbiri universitetin rektoru Dos. İradə Xəlilova açaraq, yubilyara səmimi təbrik sözləri ilə müraciət etdi və gül dəstəsi verdi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı Ə. Balayevi təbrik edərək, ona Təşəkkürnamə təqdim etdi.*

**Sonra Hamlet İsaxanlı çıxış etdi:**

-Təşəkkürnamədə yazılıb ki, Əlirza Balayev Xəzər Universitetində çoxillik səmərəli fəaliyyəti və 80 illik yubileyi münasibətilə təltif edilir. Mənim adım yazılıb və mənim imzam var, yəni, həqiqi elədir.

Xəzər Universitetində hər hansı bir iş yoldaşımızın uğuru, yubileyi bizim hamımız üçün xoş hadisədir. Amma bu, ciddi bir yubileydir, xüsusi bir rəqəmdir; uzun zamandır bir yerdə işləyirik, bu, xüsusi qeyd olunmalıdır. Bu baxımdan Əlirza müəllim Xəzər Universitetində çox sayılıb-seçilən və çox hörmət olunan, çox sevilən insanlardan biridir və bunu özü öz zəhməti ilə, əməyi ilə, davranışı ilə, ləyaqəti ilə qazanmışdır. O, uzun və çox maraqlı bir həyat yolu keçmişdir. Bizim bir hissəmizin, mən də daxil olmaqla, həyatımızın xeyli hissəsi sovet dövründə keçibdir, həyatımızın maraqlı hissəsi, mən hətta deyərdim ki, parlaq hissəsi o dövrdə keçibdir. Çünki gənc və enerjili vaxtımız olubdur və həyatın hər üzünü görmüşük. Əlirza müəllimin bir yazısı var: "Həyatın hər üzü". Hələ üzə çıxmayıb o yazı. Amma mən onun bir-iki hissəsi ilə, belə deyək, parçaları ilə tanış olmuşam. Çox maraqlıdır. Yəni, Əlirza müəllim filoloq olmaq istəyibdir, o yolu seçibdir. Filologiya çox geniş bir sahədir, peşə kimi hərənin bəxtinə bir şey düşübdü. Əlirza müəllim daha çox jurnalist kimi fəaliyyət göstərib, geniş mənada mətbuat sahəsində təşkilati iş aparıb və jurnalist kimi fəaliyyət göstəribdir.

Əlirza müəllim başlanğıcda, yəni sovet dövrünün durğunluq deyilən vaxtlarında Azərbaycan Komsomolunun Mərkəzi Komitəsində işləyibdir xeyli müddət. Komsomol kütləvi informasiya vasitələrinə - qəzet və jurnallara, radio və televiziyaya kuratorluq edib. Bu, Əlirza müəllimin yaradıcı həyatının birinci dövrü olub. İkinci dövrü, mən deyərdim, yaradıcılığının şah dövrü və ya ən maraqlı dövrlərindən biri Əlirza müəllimin "Azərbaycan gəncləri" qəzetinin redaktor müavini işləməsi olub – uzun illər. "Azərbaycan gəncləri" qəzeti,



*Hamlet İsaxanlı*

o dövrün adamları bilirlər ki, ən oxunan, ən sevilən qəzet idi və rəsmi qəzetlərdən bir az fərqli olaraq, daha maraqlı yazıları verə bilirdi. "Azərbaycan gəncləri" gənclərin qəzeti idi, belə deyək, bir də var, Azərbaycan uşaqlarının qəzeti. Bu da "Azərbaycan pioneri" idi. Bu qəzetin rus dilində də nəşri qərara alınanda Əlirza müəllim ikidilli yeni qəzetin - "Azərbaycan pioneri"- "Пионер Азербайджана" qəzetinin baş redaktoru təyin edilmişdi. Səhv eləmirəmsə, hardasa 73-cü ildən sovetlərin bitməsinə qədər olan dövrdə bax bu iki qəzeti, belə deyək, idarə eləyibdir, birində baş redaktorun müavini, digərində baş redaktor.

Əlirza müəllimin o dövrə aid xatirələrində maraqlı məqamlar var. Özünün aldığı töhmətlər silsiləsini yazır, yəni, bir silsilə töhmət alıb. Töhmətlərin əksəriyyətini, hamısını ona görə alıb ki, çox cəsarətli adam olubmuş və çox prinsipial adam olubmuş.

Töhmətləri nəyin üstündə alması çox maraqlıdır. Məsələn, baş redaktor məzuniyyətə gedəndə redaksiyaya təqdim olunmuş poemanın çap olunmamasını tapşırır. Əlirza müəllim redaktoru əvəz edən kimi poemanı, içtimai fikir üçün əhəmiyyətli hesab edərək, redaksiya heyəti üzvlərinin də dəstəyi ilə poemanı çap edir. Partiya Mərkəzi Komitəsində poema narazılıq doğurur və Əlirza müəllimə töhmət verilir. Daha maraqlı bir misal. Redaktorun özünün çap etdiyi şeirdən Mərkəzi Komitəyə şikayət edilir. Günahkarın cəzalandırılması tələb olunanda, redaktor, məsələ redaksiyanın özündə həll olunsun deyə, Əlirza müəllimdən şeirin çapını öz boynuna götürməyi xahiş edir. Əlirza müəllim razılaşır və töhmət alır. Yaxud, "Ədəbiyyat və incəsənət" qəzeti siyasi mülahizələrə görə görkəmli şairin şeirini geri qaytaranda, şair redaktoru əvəz edən Əlirza müəllimə müraciət edir və şeir növbəti nömrədə çap olunur. Bu dəfə məsələ Mərkəzi Komitənin katibi yanında müzakirə olunur və yenə töhmət... Belə maraqlı misallar çoxdur. Ən maraqlısı isə odur ki, Əlirza müəllim çapı mümkün olmayan əsərləri çap edəndə redaksiyanı və onu nə gözləyəyəcəyini bildiyi halda beləcə davam edirdi.

Və ya belə bir şey, o zaman senzura var idi – Qlavlit. Qəzet çıxmaq üçün gedirdi Qlavlitə, Qlavlit imzalamalıdır. Qlavlit imzalamır, deyir ki, bu şeiri buradan çıxar. Əlirza müəllim deyir ki, mən çıxardammaram qəti surətdə, siz də imzalamayın, qəzet çıxmayacaq, ikimizi də çağıracaqlar Mərkəzi Komitəyə, görək başımıza nə iş gəlir. Yarım saatdan sonra Qlavlit deyir, yaxşı, qəzet çıxsın. Bax belə!

Zaman ötdü, Qorbaçovun dövrü gəldi. Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi başlamışdı. Meydan hərəkatı və sonrakı dövr Əlirza müəllimin yaradıcılığının çox ciddi bir dövrü idi. "Пионер Азербайджана" qəzeti Ermənistan təxribatına qarşı kəskin yazılar dərc etdiyinə görə ünvanına Moskvadan, Uraldan

və Rusiyanın digər vilayətlərindən təhdidedici məktublar gəlirdi. "Правда", "Комсомольская правда", "Собеседник" kimi çox məşhur Moskva qəzetləri "Пионер Азербайджана"dan yazırdılar. Azərbaycan KP MK Bürosu, Bakı şəhərinin Hərbi Komendantı "Пионер Азербайджана"nı araşdırırdılar. Əlirza müəllim isə rahatca öz işini davam etdirirdi. Həmin dövrdə Əlirza müəllim Azərbaycanda çox tanınmış insan olubdu...

Sovetlər dağıldı, belə deyək ki, sovetləri dağıtdıq, bu işdə Əlirza müəllim də iştirak etdi. Sonrakı dövrdə – üçüncü yaradıcılıq dövrü demək olar buna – Əlirza müəllim dalbadal bir neçə qəzetin – "Bakının səsi", "Bakı post", "Haqq söz" qəzetlərinin baş redaktoru olubdur. Sonra Əlirza müəllim bir nəşriyyatın, "Elm və Həyat" nəşriyyatının baş redaktoru olubdur, "Xəzər Xəbər"ə gələnə qədər.



*Firəngiz Nəsirova*

Və sonra "Xəzər Xəbər" dövrü başlayıbdı, 2008-ci ildə. "Xəzər Xəbər", mən səhv eləmirəmsə, 1995-ci ildən çıxır. Baxın, 30 ilə yaxınlaşır. Müntəzəm çıxır və formasını dəyişə-dəyişə çıxır. Bir ara qəzet kimi çıxıbdı, sonra yavaş-yavaş jurnal şəklinə düşdü, bir az nazik oldu, sonra böyüdü və Əlirza müəllim olan dövrdə biz hardasa təxminən 80 səhifəlik şəkilli, üçdilli – Azərbaycan, rus, ingilis dilli jurnal buraxırıq. Jurnalı hamınız oxuyursunuz, ölkədə də, belə deyək ki, hörməti olan jurnaldır. Misal üçün, bizim Elmlər Akademiyasının mötəbər bir iclasında mən özüm eşitmişəm ki, Əlirza müəllimin təcrübəsini tərifləyiblər, belə bir şey bizdə azdır deyə.

Və bu işi, "Xəzər Xəbər"i təbii ki, mən başlamışam, başlanğıcda mənə kömək eləyiblər və bir ara mən çox zəhmət çəkdim, zəhmət yox, çox əziyyət çəkdim. Çünki, jurnal çıxır və çıxmalıdır, mən də baş redaktoram, mən başlamışam, vaxt da azdır, işim çoxdur, təbii ki, redaktorun müavinləri olmalıdır. Redaktorun da müavinləri olurdu, ya çox səhvlər gedir, ya mən düşündüyüm şeylər yaxşı icra olunmur və bu cür əziyyət çəkirdim, ta Əlirza müəllim gəlib çıxana qədər. Əlirza müəllim gəlib çıxandan sonra mən əziyyəti qoydum onun boynuna, özüm rahatca başqa işlərimlə məşğul olmağa başladım. Əlirza müəllim, belə deyək ki, yüksək peşəkar jurnalist kimi jurnalı öz üzərinə götürdü və onunla biz yalnız - jurnal necə olmalıdır, nə yeniliklər olsun, rubrikaları nədir, prinsipləri bu olsun - bu cür məsələləri müzakirə edirdik. Oxucu üçün yazıda hər şeyin önəmi var. Məsələn, bir yazıda üç-dörd dənə imla səhvi olanda, yazı çox gözəl olsa da normal adam əsəbiləşir, əsəbiləşəcək, ədəbiyyatçı, dilçi əsəbiləşəcək ki, bu nədir?! O mənada Əlirza müəllim yaxşı əsəbiləşməyi bacaran adamdır, ona görə ki, çox məsuliyyətli və çox həssasdır.

Mən onu deyim ki, elə jurnalist kimi yaradıcılığında da bu həssaslığı bir sıra yazılara gətirib çıxarıbdır. Ümumi "Etüdlər" başlığı ilə çap etdirdiyi kiçik tədqiqatlar çox maraqlıdır. Məsələn, mənim yadıma düşür ki, deyəsən, üç il əvvəl pandemiya dövründə adamlar evdə oturanda, Əlirza müəllim oturub oxuduqlarını təzədən oxumağa başlayıb. Səməd Vurğun 1949-cu ildə çap etdirdiyi bir məqaləsində Mirzə Fətəli Axundovun "Puşkinin ölümünə Şərq poeması"ndan bəhs edəndə, Müşfiqin adını çəkmədən tərcüməsindən misal gətirir ki,

bu həmin dövrdə yolverilməz bir iş hesab olunurdu. Bu barədə yazan Əlirza müəllim Müşfiqin şeirini şairin üççildliyində verilmiş orijinalı ilə tutuşduranda, Səməd Vurğunun Müşfiqin şeirində düzəlişlər etdiyini aşkar edir və bu düzəlişlərin bəzisi mənaya xələl gətirdiyinə görə Səməd Vurğuna etirazını bildirir. Əlirza müəllim bununla da işini bitmiş hesab eləmir. Diqqət yetirir ki, Müşfiqin üççildliyindəki şeirdə orfoqrafik səhvlər var, onları da kiçik məqaləsində göstərir ki, sonrakı nəşrlərdə təkrarlanmasın. Bax, budur Əlirza müəllim.

Yazını oxuyandan sonra əsərin adı ilə əlaqədar Əlirza müəllimlə söhbətim oldu. Əsərin adı, əslində, fars dilindən tərcümədə belədir: "Puşkinin ölümünə Şərq mərsiyəsi". Rus dilinə "Elegiya o smerti Puşkina" tərcümə olunub. Prinsipcə düzgün tərcümədir. "Mərsiyə" "elegiya" kimi düzdür. Azərbaycan dilində bu, "poema" kimi gedir, amma düz eləməyiblər.

Əlirza müəllim Qur`anın tərcüməsinə dair mülahizələrini yazıb, islam dinini yaxşı bilir, geniş mənada ədəbiyyat və incəsənətlə çox maraqlanır. Mən, misal üçün, onun bir tədqiqatından çox ləzzət aldım. Fikrət Əmirovun "Sevil" operası var, Azərbaycan operasının şah əsəridir. Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" və "Koroğlu" operaları ilə bir yerdə üçüncü şah əsər. Orda, hamı bilir, Balaşın məşhur ariyası var. Ariyada belə misralar var:

*Vermərəm könlümü bir dilbərə bundan sonra,*
*Olmaram mail o siminbərə bundan sonra.*

Əlirza müəllim şübhələnibdi ki, bu misraları operanın libretto müəllifi Tələt Əyyubov yazammaz, klassik poeziyadandır və həmin karantin günlərində axtarışa başlayır. Bəlkə Vahidindi - yox, bəlkə Füzulinindi - yox, Seyid Əzimindi! Əlirza müəllim ehtimal, ancaq ağlabatan ehtimal kimi onu da müəyyənləşdirir ki, bu beyt librettoya Fikrət Əmirov tərəfindən daxil edilib. Beytdə bir sözün başqa sözlə əvəz olunmasını da təhlil eləyib. Bax, Əlirza müəllim belə adamdır.

Mən düşünürəm ki, mənim sistemsiz, ordan-burdan danışığım, hər halda, Əlirza müəllimin balaca bir portretini sizin üçün yaratdı, çünki Əlirza müəllim özü bu şeyləri danışmağı sevmir. Arzu eləyirik ki, Əlirza müəllimi qarşıdakı illərdə də "Xəzər Xəbər"in sükanı arxasında görək!

Sonra İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova, universitetin prorektorları Prof. Məhəmməd Nuriyev, Dos. İsaxan İsaxanlı, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova, Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin elmi işlər üzrə dekan müavini Günel Bahəddinova və digərləri çıxışlarında yubilyara cansağlığı və fəaliyyətində uğurlar arzuladılar.

Sonda Ə. Balayev universitetin rəhbəri Hamlet İsaxanlıya, rektor İradə Xəlilovaya və digər çıxış edənlərə fəaliyyətinin yüksək qiymətləndirildiyinə görə minnətdarlığını bildirdi, yubiley tədbirinin təşkilinə görə universitet rəhbərliyinə və iştirakçılara təşəkkür etdi.

## JUBILEE EVENT AT KHAZAR UNIVERSITY

On January 9, Khazar University celebrated the 80th birthday of Honored Journalist Alirza Balayev, deputy editor-in-chief of "Khazar Khabar" journal, with a jubilee event. The university's administration and staff were in attendance.

The event commenced with the university's Rector, Assoc. Prof. Irada Khalilova, delivering opening remarks, offering sincere congratulations, and presenting flowers to the jubilee. The founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, in his extensive speech, spoke about A Balayev's many years of fruitful work and creativity in the editorial office of "Khazar Khabar" journal, and presented a letter of thanks to the jubilee.

Vice-rectors of the university Prof. Mahammad Nuriyev, Assoc. Prof. Isakhan Isakhanli, Director of Public Relations and Media of the university Alovsat Amirbeyli, Head of the Department of Languages and Literature Assoc. Prof. Dilbar Zeynalova, Head of the Department of History and Archeology Telman Nusratoghlu, Deputy Dean for Scientific Affairs of the Graduate School of Science, Art and Technology Gunel Bahaddinova, the senior lecturer of the English Language and Literature Department Firangiz Nasirova and others wished the jubilee good health and success in his work.

In the end, A. Balayev expressed gratitude to the university administration and all participants for organizing the event.

# TƏHSİL QRANT TƏLƏBƏLƏRİNƏ DƏSTƏK

Yanvarın 12-də Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə Təhsil Qrant tələbələri ilə görüş keçirildi.

Görüşün əsas məqsədi tələbələrin akademik və sosial mühitdə qarşılaşdıqları problemlərin dinlənilməsi və prosesdə onlara dəstəyin təşkil olunması idi.

Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, koordinatorlar Arzu Bədəlova, Turan Əlizadə və Əli Mirzəzadə iştirak etdilər.

Qeyd edək ki, Təhsil Qrant tələbələri İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Qoşulmama hərakatına (QH) üzv ölkələrin vətəndaşları üçün nəzərdə tutulmuş və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi tərəfindən icra olunur. Halhazırda Xəzər Universitetində 14 nəfər Təhsil Qrant tələbəsi təhsil alır. Onlar Pakistan, İndoneziya, Sudan, Maldiv Respublikası, Komor adaları, Malavi və Malayziya ölkələrinin vətəndaşlarıdır.

# SUPPORT FOR EDUCATION GRANT RECIPIENTS

On January 12, a gathering with recipients of Education Grants was conducted by the International Relations Office. The primary objective of the meeting was to address the academic and social challenges faced by students and to facilitate supportive measures. The attendees included Fatima Valiyeva, the director of the International Relations Office, along with coordinators Arzu Badalova, Turan Alizade, and Ali Mirzazade.

It is important to highlight that Education Grant recipients are individuals from countries affiliated with the Organization of Islamic Cooperation (OIC) and the Non-Aligned Movement (NAM). These grants, administered by the Ministry of Science and Education of the Republic of Azerbaijan and the State Agency for Science and Higher Education, currently support 14 students at Khazar University. These students hail from Pakistan, Indonesia, Sudan, the Republic of Maldives, Comoros Islands, Malawi, and Malaysia.



# NAİLƏXANIM TƏQAÜDÜ TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞ

# MEETING WITH NAILEKHANIM SCHOLARSHIP RECIPIENTS




*Monireh Bahrami Mohammad, Bibi Raihan Hamidi, Brilliant Windy Khairunnisa*

Yanvarın 12-də Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə Nailəxanım təqaüdü tələbələri ilə görüş keçirilib.

Məqsəd onların tələbəlik həyatları barədə ümumi təəssüratlarının, akademik və sosial mühitdə qarşılaşdıqları problemlərin dinlənilməsi, eləcə də prosesdə onlara dəstəyin təşkili olub.

Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, Beynəlxalq əlaqələr üzrə koordinatorlar Arzu Bədəlova, Turan Əlizadə və Əli Mirzəzadə iştirak ediblər.

Qeyd edək ki, Nailəxanım təqaüdü magistraturada və doktoranturada təhsil almaq istəyən xanım namizədlər üçün tam maliyyələşdirilmiş təqaüd proqramıdır. Hazırda Xəzər Universitetində 3 tələbə Nailəxanım təqaüdü ilə təhsil alır. Onlar İran, Əfqanıstan və İndoneziya vətəndaşlarıdır.

On January 12, a meeting took place with recipients of the Nailekhanim scholarship, orchestrated by the International Relations office. The primary aim of the meeting was to hear the overall experiences of the students regarding their academic life, understand the challenges they encounter in both academic and social spheres, and provide support where needed.

Head of the International Relations Office Fatima Valiyeva, International Relations Coordinators Arzu Badalova, Turan Alizade and Ali Mirzazade participated in the meeting. Note that the Nailekhanim scholarship is a fully funded program designed for female candidates pursuing master's and doctoral studies. Currently, three Nailekhanim scholarship recipients, hailing from Iran, Afghanistan, and Indonesia, are pursuing their studies at Khazar University.




## ƏCNƏBİ DOKTORANTIN DİSSERTASİYASININ İLKİN MÜZAKİRƏSİ

Yanvarın 17-də Xəzər Universitetinin Kompüter elmləri departamentinin doktorantı Mohammad Ali Mofleh Al Qudah`ın "Süni intellekt texnologiyalarının e-hökumətdə vətəndaş xidmətləri üçün tətbiqi" mövzusunda 1203.01 – "Kompüter elmləri" ixtisası üzrə texnika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işinin departamentdə ilkin müzakirəsi keçirildi.

İclasda həm departament əməkdaşları, həm də ixtisas üzrə müxtəlif müəssisələrdən dəvət olunan mütəxəsislər iştirak etdilər. İlkin müzakirənin keçirilməsi qaydasına uyğun olaraq doktorantın təqdimatından sonra rəyçilərin rəyi dinlənildi, suallar verildi və çıxışlar oldu. İclasın yekununda dissertasiya işinin müvafiq dissertasiya şurasında müdafiəyə təqdim olunması qərara alındı.

## FOREIGN DOCTORAL CANDIDATE'S DISSERTATION PRE-DEFENSE

On January 17, the pre-defense of the dissertation presented by Mohammad Ali Mofleh Al Qudah, a doctoral student of the Department of Computer Science of Khazar University, was held on the topic "Utilizing Artificial Intelligence Technologies for Public Services in E-Government" for the degree of Doctor of Philosophy in 1203.01 – "Computer sciences".

The meeting was attended by both department employees and specialists invited from various institutions. According to the procedure of the pre-defense, after the presentation of the doctoral student, the opinions of reviewers were heard, questions were asked and speeches were made. At the end of the meeting, it was decided to present the dissertation for defense in the relevant Dissertation Council.





## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MONOQRAFİYASI TÜRKİYƏDƏ İKİNCİ DƏFƏ NƏŞR OLUNUB

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin Türkiyə Respublikası Sakarya Universitetinin Siyasi elm və dövlət idərəçiliyi kafedrasında müdafiə etdiyi "Çarlıq Dövrü Azərbaycanının milli kimlik inşası: 1850-1920" adlı dissertasiyası əsasında hazırlanan monoqrafiyası "Azərbaycan millətçiliyi" (Azərbaycanı cümhuriyyətə götürən proses) başlığı altında Türkiyənin beynəlxalq indeksli Nobel Akademik nəşriyyatı tərəfindən 2023-cü ilin dekabr ayında nəşr edilmişdir.Qeyd edək ki, monoqrafiyanın birinci nəşri də 2020-ci ildə Türkiyədə işıq üzü görüb.

Monoqrafiyada Çarlıq dövründən Azərbaycanda modernləşmə, modern dövlət olan cümhuriyyət tədqiq edilmişdir.




## HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT RELEASES SECOND EDITION MONOGRAPH IN TÜRKIYE

The monograph entitled "Azerbaijani Nationalism" (The Process Leading Azerbaijan to the Republic) is based on the dissertation defended by Dr. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy, "Construction of the National Identity of Tsarist Period Azerbaijan: 1850-1920," at the Faculty of Political Sciences, Institute of Social Sciences, Department of Political Science and State Administration, Sakarya University, Republic of Türkiye. The publication, released in December 2023, is by the internationally indexed Nobel Academic publishing house of Türkiye. Notably, the initial edition of the monograph was previously published in Türkiye in 2020.

The monograph explores Azerbaijan's modernization journey from the Tsarist era to the establishment of the republic, focusing on the construction of national identity and the inception of the first modern state. The monograph is the first work published in this context.

*https://www.nobelyayin.com/azerbaycan-milliyetciligi-azerbaycan-39-i-cumhuriyete-goturen-surec-20674*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN DOKTORANTININ MƏQALƏSİ "JOURNAL OF AREA STUDIES" JURNALINDA

## DOCTORAL STUDENT FROM POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT CONTRIBUTES ARTICLE TO 'JOURNAL OF AREA STUDIES'

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin doktorantı Burcu Temür'ün "Kirgiz halkindan Kirgizistan devletine: etno-sembolizm bağlaminda bir analiz" ("From the Kyrgyz People to the Kyrgyz State: An Analysis in the Context of Ethno-Symbolism") adlı məqaləsi "Journal of Area Studies"də (2023, Cild 2. № 2. Səhifə 158-178) dərc edilmişdir. Qeyd edək ki, jurnal Türkiyənin Dergipark elmmetrik bazasında yer alır.

The article of Burcu Temür, currently pursuing a doctorate in the Department of Political Sciences and Philosophy at Khazar University, entitled "From the Kyrgyz People to the Kyrgyz State: An Analysis in the Context of Ethno-Symbolism" was published in "Journal of Area Studies" (2023, Volume 2. No. 2. Pages 158-178). Notably the journal is included in Dergipark scientometric database of Türkiye.

*https://dergipark.org.tr/tr/pub/ajas/issue/82145/1349230*




## KİTABXANA İNFORMASİYA MƏRKƏZİNDƏ 20 YANVAR FACİƏSİ İLƏ BAĞLI KİTABLARIN SƏRGİSİ

Sərgidə kitabxananın fondunda olan "Şəhidlər", "Erməni lobbisi...Azərbaycan faciəsi", "20 Yanvar şəhidləri", "Yanvar şəhidləri" , "20 yanvar Tariximizin qanlı və şanlı səhifəsi", "Ülvi Bünyadzadə -50. Vətən - şəhid əmanəti", "Yağır ulduz çiçəkləri" və digər kitablar nümayiş olunub.

## KHAZAR UNIVERSITY'S LIBRARY INFORMATION CENTER HOSTS EXHIBITION ON JANUARY 20 TRAGEDY BOOKS

"Martyrs", "Armenian Lobby...Azerbaijani Tragedy", "January 20 Martyrs", "January Martyrs", "January 20 Bloody and Glorious Page of Our History", "Ülvi Bünyadzade - 50, a legacy of a homeland martyr.", "Martyrs", "Star flowers are falling" and other books were displayed in the exhibition.







*Telman Nüsrətoğlu*

## ÜMUMXALQ HÜZN GÜNÜ İLƏ BAĞLI ANIM MƏRASİMİ

## NATIONAL DAY OF MOURNING COMMEMORATION

Yanvarın 18-də Xəzər Universitetinin Neftçilər kampusunda Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə 20 yanvar – Ümumxalq hüzn günü ilə bağlı anım mərasimi keçirilib. Öncə 20 yanvar şəhidləri və Azərbaycanın müstəqilliyi uğrunda canından keçən bütün şəhidlərin müqəddəs ruhları bir dəqiqəlik sükutla yad edilib. Sonra isə Qanlı 20 Yanvarla bağlı videoçarx nümayiş etdirilib.

Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu Quliyev və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli çıxış edərək, o müdhiş gecədə xalqımızın başına gətirilən misli görünməyən müsibətlər barədə ürək ağrısı ilə söz açıblar. Xəzər Universitetinin əməkdaşları və tələbələri də mövzu ilə bağlı fikir və mülahizələrini söyləyiblər.

On January 18, a memorial event took place at Khazar University's Neftchilar campus, organized by the Department of History and Archeology to observe the National Day of Mourning for January 20. The ceremony began by honoring the martyrs of January 20 and all those who sacrificed their lives for Azerbaijan's independence, marked with a moment of silence. Subsequently, a video detailing the events of Bloody January 20 was presented.

Assoc. Prof. Telman Nusratoghlu Guliyev, the head of the History and Archeology Department, and Alovsat Amirbeyli, the director of Public Relations and Media, delivered speeches, reflecting on the tragic events that unfolded on that fateful night. Employees and students of Khazar University also shared their thoughts and perspectives on the matter.





*Mehdi Hajian, Cavid Ocaqi, Mohammad Hossein Nasr Esfahani,Cəmalə Eldarova, Farnoosh Jafarpour,Məhəmməd Eldarov*

## ƏMƏKDAŞLAR ROYAN BİOTEXNOLOGİYA İNSTİTUTUNA EZAM OLUNMUŞLAR

## KHAZAR UNIVERSITY STAFF EMBARKS ON MISSION TO ROYAN INSTITUTE OF BIOTECHNOLOGY

Xəzər Universitetinin Həyat elmləri departamentinin müdiri Dr. Cəmalə Eldarova, departamentin dosenti Dr. Cavid Ocaqi və Təbiət elmləri, Sənət və Texnologiya yüksək təhsil fakültəsinin dekan müavini Dr. Məhəmməd Eldarov 4 gün müddətinə (14-18 yanvar 2024-cü il) İranın İsfahan şəhərində yerləşən Royan Biotexnologiya İnstitutuna ezam olunmuşlar.

Ezamiyyətin əsas məqsədi elmi-tədqiqat layi-

Jamala Eldarova, the head of Khazar University's Department of Life Sciences, Dr. Javid Ojagi, an associate professor of the department, and Mahammad Eldarov, the deputy dean of the Graduate School of Science, Art, and Technology, were dispatched to the Royan Institute for Biotechnology in Isfahan, Iran, for a four-day visit from January 14 to 18, 2024.



hələrinin müzakirəsi, əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, elmi-tədqiqat laboratoriyalarının qurulması və birgə tədqiqat işlərinin yerinə yetirilməsi olmuşdur. Həyat elmləri departamentinin akademik heyəti Embriologiya, Biotexnologiya, Kök hüceyrə, Virusologiya, Andrologiya kimi laboratoriyalarda aparılan tədqiqat işləri və institutun texniki bazası ilə yaxından tanış olmuşlar. Həmçinin, Prof. Nasr Esfahani tərəfindən Royan İnstitutunun rektoru və prorektorlarının iştirakı ilə onlayn görüş təşkil edilmiş, hər iki təşkilat arasında memorandum imzalanması, birgə tədqiqat mərkəzinin yaradılması və digər əməkdaşlıq məsələləri ətraflı müzakirə edilmişdir.



"Xəzər"in əməkdaşları Prof. Nasr`ın "Pooyeshfertility" adlı özəl klinikasında da olmuş, süni mayalanma, sonsuzluğun müalicəsi, embrioloji müayinələr, cinsiyyətin müəyyən edilməsi sahəsində aparılan işlər haqqında məlumat almışlar.

Dr. Mehdi Hajian və Dr. Farnush Jafarpoor tərəfindən Royan Biotexnologiya İnstitutunun fermasına səfər təşkil olunmuş, heyvanlar üzərində aparılan tədqiqatlar haqqında hərtərəfli məlumat verilmişdir.

Beləliklə, Xəzər Universiteti ilə Royan İnstitutu arasında memorandum imzalanması, birgə qrant layihələrin yazılması və elmi tədqiqat mərkəzinin qurulması qərara alınmışdır.

The primary objective of the visit was to engage in discussions regarding scientific research projects, fortify cooperation ties, set up scientific research laboratories, and collaborate on joint research endeavors. The faculty from the Department of Life Sciences familiarized themselves with the ongoing research in areas such as Embryology, Biotechnology, Stem Cell, Virology, and Andrology, as well as explored the institute's technical facilities. Additionally, an online meeting, led by Prof. Nasr Esfahani, involved the rector and vice-rectors of Royan Institute, addressing the signing of a memorandum, the establishment of a joint research center, and other cooperation matters.




Khazar University staff also visited Prof. Nasr's private clinic, "Pooyesh-fertility," gaining insights into artificial insemination, infertility treatment, embryological examinations, and gender determination. Dr. Mehdi Hajian and Dr. Farnush Jafarpoor facilitated a tour of the Royan Institute of Biotechnology's farm, providing extensive information about animal research.

Consequently, the decision was made to sign a memorandum between Khazar University and the Royan Institute, collaborate on joint grant projects, and establish a scientific research center.

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

# "MİLLİ İSTİQLAL MARŞININ VƏ MÜSTƏQİL DÖVLƏTÇİLİYİN BÖYÜK CARÇISI" MÖVZUSUNDA KONFRANS




Ədəbiyyat İnstitutunda Mehmet Akif Ərsoyun 150 illiyinə həsr edilmiş "Milli istiqlal marşının və müstəqil dövlətçiliyin böyük carçısı" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Tədbirdən öncə Ədəbiyyat İnstitutunda Mehmet Akif Ərsoy Mərkəzinin açılışı baş tutub. Açılış mərasimində AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli, Türkiyə Cümhuriyyəti Mehmet Akif Ərsoy vəqfinin başqanı Ruyan Soydan, Türkiyənin Burdur Mehmet Akif Ərsoy Universitetinin rektoru prof. Dr. Hüseyin Dalgar, Bakı Yunus Əmrə İnstitutunun müdiri Selcuk Karakılıç və Ədəbiyyat İnstitutunun kollektivi iştirak edib.

Açılışdan sonra Mehmet Akif Ərsoyun həyat və fəaliyyətini əks etdirən, eləcə də özünün müəllifi olduğu əsərlərdən ibarət sərgiyə baxış keçirilib.

Elmi konfansı giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açaraq eyni dilə, dinə, mədəniyyətə, soykökə malik Azərbaycan-Türkiyə dostluq, qardaşlıq münasibətlərinin min illərə söykəndiyini bildirib. Akademik İsa Həbibbəyli AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrinin müəssisələrində Türkiyənin tarixinə, ədəbiyyatına, mədəniyyətinə həsr



*Selcuk Karakılıç, Ruyan Soydan, İsa Həbibbəyli*

olunmuş tədqiqatların aparıldığını, Ədəbiyyat İnstitutunda Mehmet Akif Ərsoy Mərkəzinin açılması ilə bu tədqiqatların daha da zənginləşəcəyini söyləyib. Xüsusilə Ədəbiyyat İnstitutunda Mehmet Akif Ərsoyun həyatı və ədəbi fəaliyyəti ilə bağlı önəmli araşdırmaların aparıldığını, Burdur Mehmet Akif Ərsoy Universiteti ilə sıx əməkdaşlıq edildiyini deyib.

Akademik İsa Həbibbəyli mərkəzin açılışında göstərdiyi dəstəyə və Mehmet Akif Ərsoyun büstünü hazırlatdıqlarına görə Bakı Yunus Əmrə İnstitutuna minnətdarlığını bildirib. Qeyd edib ki, yeni mərkəz Azərbaycanla Türkiyə qardaşlığına daha bir elmi töhfədir və ölkələrimiz arasında elmi körpü rolunu oynayacaq.



*Hüseyin Dalgar*

Ədəbiyyat İnstitutunda yeni açılan Mehmet Akif Ərsoy Mərkəzinin önündəki Mehmet Akif Ərsoy büstünü hazırlayan Naxçıvan Dövlət Universitetinin müəllimi, heykəltəraş Elxan Zeynalov isə çıxışında görkəmli istiqlal şairinin bütün Türk dünyasının fəxri olduğunu qeyd edib.

Konfransda Türkiyə Cümhuriyyəti Mehmet Akif Ərsoy vəqfinin başqanı Ruyan Soydan "Mehmet Akifin irfan dünyası", Burdur Mehmet Akif Ərsoy Universitetinin professoru Zəfər Gölən "Burdur Mehmet Akif Ərsoy Universiteti Mehmet Akif Ərsoy mərkəzinin arxivi", AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Məmməd Əliyev "Mehmet Akif Ərsoy və Əhməd Cavadın yaradıcılıq idealları" və Türk xalqları ədəbiyyatı şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru, dosent Eşqanə Babayeva "Mehmet Akif yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisələr kontekstində" mövzusunda məruzə ediblər.

# "POEZİYAMIZIN AĞ ÇİÇƏYİ NURƏNGİZ GÜN"






Ədəbiyyat İnstitutunda unudulmaz şair Nurəngiz Günün 85 illik yubileyinə həsr olunmuş "Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün" adlı tədbir keçirilib. Tədbirdə Millət vəkillərindən Musa Urud, Hicran Hüseynova, Məlahət Həsənova, Sevinc Fətəliyeva, yazarlardan, Vahid Əziz, Varis Yolçuyev, Xanım İsmayılqızı və başqaları iştirak ediblər. Tədbir çərçivəsində Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri filologiya elmləri doktoru Vaqif Yusiflinin şairə həsr etdiyi "Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün" kitabının təqdimatı da baş tutub.

Tədbirdən öncə Nurəngiz Günün kitablarından və ona həsr olunmuş nəşr nümunələrindən ibarət sərgiyə baxış olub.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açıb. Akademik İsa Həbibbəyli ədəbiyyata "Tanrı" povesti ilə gələn Nurəngiz Günü istedadlı şairə, publisist və dəyərli insan kimi xarakterizə edib. O, "Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün" kitabının təqdimatının görkəmli sənətkar, şair Nurəngiz Günün 85 illik yubileyinə təsadüf etməsini əlamətdar hadisə kimi qiymətləndirib.

AMEA rəhbəri müstəqillik dövrü ərəfəsi və müstəqillik dövründə Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan tanınmış şairə Nurəngiz Günün poeziyasının əsas xüsusiyyətlərindən bəhs edərək ədibin Azərbaycan şeirinin orijinal nümunələrini yaratmış böyük sənətkar olduğunu vurğulayıb. Bildirib ki, Nurəngiz Günün yaradıcılığında xalis lirika ilə yanaşı, ictimai motivlər də paralel şəkildə yer almış və bir-birini tamamlamışdır: "Hələ Sovet hakimiyyəti illərində Nurəngiz Günün yazdığı "Qəfəs Respublikası" adlı dərin ictimai məzmuna malik şeir böyük vətəndaşlıq misiyasının ifadəsinə malik olan qiymətli əsərdir".

Akademik İsa Həbibbəyli qeyd edib ki, çoxcəhətli yaradıcılığa malik olan Nurəngiz Gün peşəkar yazıçı missiyasını həm lirikasında, həm də poemalarında yüksək səviyyədə yerinə yetirmişdir. Onun sözlərinə görə, "Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün" kitabında şairənin yaradıcılığı bütün istiqamətlər üzrə dərindən təhlil olunmuş, elmi təhlillər aparılmışdır. AMEA prezidenti dörd hissədən ibarət olan, Nurəngiz Günün mükəmməl ədəbi portretinin yaradıldığı bu kitabda şairin qızı, Milli Məclisin deputatı Jalə Əliyevanın da Nurəngiz Günlə bağlı müsahibəsinin yer aldığını və bu müsahibənin kitabda irəli sürülən müddəaları tamamladığını diqqətə çatdırıb. O, kitabda Nurəngiz Günün ömür yolunu, yaradıcılığını əks etdirən fotosalnamənin təqdim olunduğunu da vurğulayıb.

Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli "Nurəngiz Günün Güney poeziyası" və Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov "Nurəngiz Gün poeziyasının işığında" adlı məruzələrində şairin yaradıcılığının xarakterik xüsusiyyətlərindən söz açıblar.

Milli Məclisin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüsyenova, Xalq şairi Vahid Əziz, Xalq yazıçısı Elmira Axundova, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxışlarında Nurəngiz Günün Azərbaycan ədəbiyyatındakı müstəsna yeri və müstəsna xidmətlərindən danışıb, xanım şairə olan böyük sevgi və ehtiramdan bəhs ediblər.

Sonra filologiya elmləri doktoru Vaqif Yusifli "Nurəngiz Gün sənətinin özəllikləri" məruzəsində yubliyarın sənət yolunun özəlliklərinə toxunub. "Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün" kitabının yaranma zərurətindən bəhs edib.

Sonda şairin qızı, deputat, filologiya elmləri doktoru, professor Jalə Əliyeva çıxış edərək tədbirin yüksək səviyyədə təşkili üçün təşəkkürlərini çatdırıb, anasının xatirəsinə göstərdikləri ehtirama görə minnətdarlıq edib.



*Jalə Əliyeva*

## "ZİYAYİ-QAFQAZİYYƏ" ÇAP OLUNUB

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində hazırlanan "Ziyayi-Qafqaziyyə" (1880-1884) qəzeti transliterasiya edilərək ilk dəfə kitab halında çap olunub. "Ziyayi-Qafqaziyyə"nin bütün nömrələri şöbənin mərhum əməkdaşı Müştəba Əliyev tərəfindən transfoneliterasiya edilərək, lüğət, izah və şərhlərlə kitab halına salınıb. Kitab Ədəbiyyat İnstitutunun Elmi Şurasının 8 fevral 2023-cü il tarixli 1 saylı qərarı ilə nəşr edilib.

Kitabın baş redaktoru və "Ziyayi-Qafqaziyyə" qəzetinin Ədəbiyyat İnstitutu nəşri" adlı ön sözünün müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Nəşri çapa hazırlayan və redaktor Mətbuat tarixi və publisistika şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Vüqar Əhmədddir.

Rəyçiləri akademik Teymur Kərimli, filologiya elmləri doktoru, professor Cahangir Məmmədli və filologiya elmləri doktoru Elçin Mehrəliyevdir.

1090 səhifəlik kitab "Elm və təhsil" nəşriyyatında çap olunub.




**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*




*Afaq Həşimli*

# "ARCHIDA GROUP" SEMİNAR KEÇİRİB

# "ARCHIDA GROUP" HOLDS A SEMINAR

2023-cü il dekabrın 5-də Xəzər Universitetinin Mərmər salonunda Memarlıq və dizayn, İnşaat mühəndisliyi departamentlərinin təşkilatçılığı ilə "Archida Group" "Dizayn belə olar" adlı seminar keçirib.

Seminarda "Archida Group"-un rəhbəri Afaq Həşimli və əməkdaşları, universitetin professor-müəllim heyəti və tələbələr iştirak etmişlər.

Sonda bir sıra tələbələrə seminarda aktiv iştiraklarına görə sertifikat verilmişdir.

On December 5, 2023, "Archida Group" held a " Visualizing Design" seminar organized by the departments of Architecture and Design and Civil Engineering in the Marble Hall of Khazar University. The head of "Archida Group" Afaq Hashimli and its employees, professors and teachers of the university and students took part in the seminar.

At the end, a number of students were awarded certificates for their active participation in the seminar.



## BRİDGE ACADEMY TƏRƏFİNDƏN İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ ÜÇÜN KARYERA SEMİNARI






*Fateh İsrafilzadə*

2023-cü il dekabr ayının 6-da Xəzər Universitetində Karyera Mərkəzi və İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə Bridge Academy tərəfindən fakültənin tələbələri üçün karyera seminarı keçirilmişdir. Seminarda Bridge Academy-nin İnkişaf meneceri Leyla Əsədova və Bridge Academy-nin CFA üzrə müəllimi Fateh İsrafilzadə çıxış etmişlər.

Seminarda tələbələr "Karyera hazırlıq mərhələsi necə olmalıdır?", "Könüllülük fəaliyyətindən və təcrübə proqramlarından necə faydalanmaq olar?", "Karyera başlamaq üçüm mümkün istiqamətlər nələrdir və aktiv şirkətlər hansılardır?" və s. suallara cavab tapmışlar.

Seminarın sonunda tələbələr arasında maliyyə və mühasibatlıq istiqamətində onlayn imtahan keçirilmişdir və imtahan nəticəsinə əsasən ən çox bal toplayan 5 tələbə Bridge Academy-nin təlimlərinə 50%, 75% və 100%-lik endirimlər qazanmışlar.

## A CAREER SEMINAR BY BRIDGE ACADEMY FOR THE STUDENTS OF SCHOOL OF ECONOMICS AND MANAGEMENT



*Leyla Əsədova*

On December 6, 2023, a career seminar for students at the School of Economics and Management was held by Bridge Academy at Khazar University, organized by the Career Center and School of Economics and Management. Leyla Asadova, Development Manager of Bridge Academy and Fateh Israfilzadeh, CFA teacher of Bridge Academy delivered speeches at the seminar. At the seminar, students found answers a lot of career-related questions such as "What should be the career preparation stage?", "How to benefit from volunteering and internship programs?", "What are the possible directions for starting a career and what are the active companies?" and so on. At the end of the seminar, an online exam was held among the students in the field of finance and accounting, and according to the exam results, the 5 students who scored the most points won 50%, 75% and 100% discounts on Bridge Academy training.

## KARYERA VƏ MƏZUNLAR MƏRKƏZİNƏ METODİK VƏSAİTLƏR HƏDİYYƏ EDİLMİŞDİR

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Mərkəzi Karyera filialı tərəfindən Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinə "Karyera məsləhətçiləri üçün metodik vəsait", "Tələbələr üçün metodik vəsait", "İşsiz və işaxtaranlar üçün metodik vəsait" hədiyyə edilmişdir.




## METHODICAL MATERIALS PRESENTED TO CAREER AND ALUMNI CENTER







The Central Career branch of the Public Employment Agency under the Ministry of Labor and Social Protection of the Republic of Azerbaijan presented Khazar University Career and Alumni Center with methodical materials such as "Methodical materials for career counselors", "Methodical materials for students", "Methodical materials for unemployed and jobseekers".


Rəşad Əliyev



## "EDUCOMPANY" KURSUNUN DİNLƏYİCİLƏRİ VƏ MÜƏLLİM KOLLEKTİVİ İLƏ GÖRÜŞ

## GATHERING WITH STUDENTS AND TEACHING STAFF OF "EDUCOMPANY" COURSE

2023-cü il dekabrın 14-də Xəzər Universitetində "EduCompany" kursunun dinləyiciləri və müəllim kollektivi ilə görüş keçirilmişdir. Universitetin əməkdaşı Ülvi Babasoy giriş sözü ilə qonaqları salamlamış, Xəzər Universiteti haqda təqdimatla çıxış etmişdir.

Universitetin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı seminar keçirmiş və abituriyentlərin suallarını cavablandırmışdır. Sonda "EduCompany" kurslarının Elmlər filialının rəhbəri Rəşad Əliyev çıxış etmişdir.

On December 14, 2023, a gathering took place with the students and teaching staff of the "EduCompany" course at Khazar University. Ulvi Babasoy, a staff member at the university, welcomed the attendees with an introductory remark and delivered a presentation about Khazar University.

Malak Karimova, the coordinator of the Psychology Department at the university, conducted a seminar covering topics such as time management, alleviating anxiety during exams, and effective study methods. She also addressed questions from the participants. To conclude the session, Rashad Aliyev, the head of the Science branch at "EduCompany" courses, shared insights.





# ÇİNİN HEBEİ NORMAL UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "XƏZƏR" UNİVERSİTETİNDƏ




*Dai Jianbing* *Hamlet İsaxanlı*

# STAFF MEMBERS OF HEBEI NORMAL UNIVERSITY OF CHINA AT KHAZAR UNIVERSITY

2023-cü il dekabrın 21-də Xəzər Universitetində Çin Hebei Normal Universitetinin əməkdaşları ilə görüş keçirilib.

Görüşdə qonaqlar - Hebei Normal Universitetinin sabiq partiya katibi və nümayəndə heyətinin rəhbəri Dai Jianbing, Biznes fakültəsinin rəhbəri Zhang Xuewen, Xarici tədqiqatlar fakültəsi və Rusiya mərkəzinin rəhbəri Guo Xiaoli, Xarici tədqiqatlar fakültəsinin müəllimi Cheng Hong, Beynəlxalq mədəniyyət mübadilələri kollecinin dekanı Qi Xiaoyan, Pekin Xarici Dillər Univerisitetinin müəllimi və bu ali məktəbin Regionşünaslıq kafedrasının tədqiqatçısı Aqşin Əlieyev; Xəzər Universitetindən təsisçi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər

Qarşılıqlı fikir mübadiləsi prosesində Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva

On December 21, 2023, a gathering took place between Khazar University and Hebei Normal University of China.

The meeting was attended by the guests - Dai Jianbing, former party secretary and delegation head of Hebei Normal University, Zhang Xuewen, head of the Business Faculty, Guo Xiaoli, head of the Faculty of Foreign Studies and Russian Center, Cheng Hong, lecturer of the Faculty of Foreign Studies, Qi Xiaoyan, dean of the College of International Cultural Exchange, Agshin Aliyev, the lecturer of Beijing Foreign Languages University researcher of the Department of Regional Studies of this university; Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustee, Assoc. Prof.Irada Khalilova, the rector of the university, Ingilab Ahmadov, the dean of the Graduate School of Economics and Business, Fakhranda Efendiyeva, the dean of the School of Science and Engineering and Fatima Valiyeva, the head of the International Relations

tərəfindən Xəzər Universiteti haqqında, Beynəlxalq mədəniyyət mübadilələri kollecinin dekanı Qi Xiaoyan tərəfindən isə Hebei Normal Universiteti barədə təqdimatlar nümayiş etdirilib. Müzakirənin mövzusu qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi olub.

Sonra hər iki təhsil müəssisəsi arasında əlaqələri genişləndirmək məqsədilə qarşılıqlı anlaşma memorandumu imzalanıb və Hebei Normal Universiteti nümayəndələrinin Çin mədəniyyəti ilə bağlı çıxışları dinlənilib.

Görüşün sonunda tərəflər hədiyyə təqdim etmişlər.



*İradə Xəlilova*

Department.

During the discussion, Fatima Valiyeva, the head of the International Relations Department, highlighted aspects of Khazar University, while Ingilab Ahmadov, the dean of the Graduate School of Economics and Business, provided insights into ongoing projects. Agshin Aliyev, a lecturer from Beijing Foreign Languages University and a researcher in the Department of Regional Studies, shared information about the Chinese Research Center. Qi Xiaoyan, the dean of the College of International Cultural Exchange, presented on Hebei Normal University.

The focal point of the discussions centered around fostering mutual relations.

Following the exchange of views, a memorandum of understanding was signed to enhance collaboration between the two educational institutions. Presentations about Chinese culture were delivered by representatives from Hebei Normal University.



## UNİVERSİTET TƏLƏBƏLƏRİ ARASINDA "KHAZAR CHAMPIONS LEAGUE" MİNİFUTBOL TURNİRİ BAŞA ÇATIB

2023-cü il oktyabrın 22-də başlanan bu turnir 2 ay davam edib və 2023-cü il dekabrın 24-də başa çataraq yekunlaşıb.

20 komandanın iştirakı ilə keçirilən turnirdə Təbiət elmləri və mühəndislik fakültəsinin 3-cü kurs tələbələrinin "Trojan" komandası qalib adını qazanıb. 2-ci yerin sahibi "Tragos" komandası, 3-cü yerin sahibi isə "Nankatsu" komandası olub. Qaliblər universitet rəhbərliyi tərəfindən kubok və medallarla mükafatlandırılıb.

Qeyd edək ki, "Khazarfootball" klubu və xüsusilə Rüfət Hüseynquliyev, Məhəmməd Kərimli və Şahin Əhmədov turnirin təşkilində fəallıq göstəriblər.

## COMPLETION OF 'KHAZAR CHAMPIONS LEAGUE' MINI-FOOTBALL TOURNAMENT FOR UNIVERSITY STUDENTS

This tournament, which started on October 22, 2023, spanned for 2 months and concluded on December 24, 2023.

The "Trojan" team, consisting of 3rd-year students from the Science and Engineering School, emerged victorious among 20 participating teams. Securing the 2nd place, the "Tragos" team was followed by the "Nankatsu" team in 3rd place. The university administration honored the winners with cups and medals . Note that, the organization of the tournament was actively supported by the "Khazarfootball" club, with special contributions from Rufat Huseynguliyev, Muhammad Karimli, and Shahin Ahmadov.



*Qalib komanda: "Trojan"*

# PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU BEYNƏLXALQ KONFRANSDA

Yanvarın 24-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatorü Mələk Kərimova İstanbulda (üz-üzə və onlayn) təşkil edilən Multidisiplinar Beynəlxalq VII Haliç Konfransında "Musiqi terapiyasının psixi rifahımızda rolu" adlı məruzə ilə çıxış edib. O, musiqinin insanlar üçün həm fiziki, həm də psixoloji təsirlərini açıqlamaqla yanaşı, musiqi terapiyasının insanların psixi rifahında tarixi keçmişini, müxtəlif növlərini və metodlarını, əhəmiyyətini, insan sağlamlığına müsbət təsirləri haqqında danışıb.

Məruzədə, eyni zamanda, musiqinin beynin nöroloji prosesləri, neurotransmitterlər və beynin strukturları üzərindəki müsbət təsirləri, insanların stress, depressiya və digər psixoloji çətinliklərlə mübarizədə rolu üzərində dayanılıb.

Mərizəçi musiqinin insan həyatında oynadığı mühüm rolu və musiqi terapiyasının psixi rifahın təşviqi üçün dəyərli alternativ vasitə olduğunu vurgulayaraq, konfrans iştirakçılarının suallarını cavablandırmaqla çıxışını yekunlaşdırıb.




# THE COORDINATOR OF THE PSYCHOLOGY DEPARTMENT AT THE INTERNATIONAL CONFERENCE

On January 24, Malak Karimova, the coordinator of the Psychology Department at Khazar University, presented a thesis titled "The Role of Music Therapy in our Mental Well-being" at the Multidisciplinary International VII Halic Conference held in Istanbul (both in-person and online). In her presentation, she not only explained the physical and psychological effects of music on individuals but also discussed the historical background, various types, and methods of music therapy, emphasizing its importance and positive effects on mental well-being.

During the presentation, she delved into the neurological processes of the brain, the positive effects of music on neurotransmitters and brain structures, and the role of music in combating stress, dealing with depression, and addressing other psychological challenges.

The speaker highlighted the significant role that music plays in human life and underscored that music therapy serves as a valuable alternative means for promoting mental well-being. She concluded her presentation by addressing questions from conference participants.

## DUMLUPİNAR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ





*Hafize Er Türküresin*

## REPRESENTATIVES OF DUMLUPINAR UNIVERSITY AT KHAZAR

Yanvarın 22-24-də Türkiyənin Kütahya şəhərində yerləşən Dumlupinar Universitetinin nümayəndələri Hafize Er Türküresin və Baykal Biçer Erasmus+ İşçi Heyətinin Mobilliyi Mübadilə Proqramı (Erasmus+KA107171) çərçivəsində Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsi, həmçinin Beynəlxalq əlaqələr ofisi tərəfindən qəbul edilib.

Proqramın ilk günü Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin elmi işlər üzrə dekan müavini Günel Bahəddinova, Dillər və ədəbiyyatlar departamentinin müəllimi Aynur Qəzənfərqızı, Təhsil departamentinin koordinatoru Leyla Əliyeva və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, koordinatorları Arzu Bədəlova, Əli Mirzəzadə və Turan Əlizadənin türkiyəli müəllim heyəti ilə tanışlıq görüşü keçirilib. Görüşdə Fatimə Vəliyeva Xəzər Universiteti haqqında geniş məlumat verib. Dumlupinar Universitetinin nümayəndələri öz universitetləri haqqında videoçarx nümayiş etdiriblər. Sonra isə Arzu Bədəlova qonaqlara kampus turu təşkil edib.

On January 22-24, representatives of Dumlupinar University in Kutahya, Türkiye, Hafize Er Turkuresin and Baikal Bicher visited the School of Humanities, Education and Social Sciences, as well as the International Relations Office of Khazar University, within the Erasmus+ Staff Mobility Exchange Program (Erasmus+ KA107171).

On the first day of the program, an introductory meeting was held with the participation of Aygun Verdiyeva, deputy dean of the School of Humanities, Education and Social Sciences of Khazar University, Gunel Bahaddinova, deputy dean for scientific affairs of the Graduate School of Science, Art and Technology, Aynur Gazanfargizi, lecturer of the Department of Languages and Literatures, Leyla Aliyeva, coordinator of the Department of Education, and Fatima Valiyeva, head of the International Relations Department, coordinators Arzu Badalova, Ali Mirzazadeh and Turan Alizadeh. At the meeting, Fatima Valiyeva gave detailed information about Khazar University. Representatives of Dumlupinar University presented a video about their university. Then Arzu Badalova organized a

Ertəsi gün Humanitar, təhsil və sosial elmlər fakültəsinin əməkdaşları və fakültənin doktorantura tələbələrinin iştirakı ilə Hafize Er Türküresin`in "Fatih layihəsi və onun sosial tələbələrin təhsilinə təsiri" başlıqlı seminarı təşkil olunub. Bunun ardınca isə Baykal Biçer`in "Türkiyənin təhsil dəyərləri" adlı mühazirəsi dinlənilib və həmin gün tədbir Atəşgah məbədinə səfərlə yekunlaşıb.

Tədbirin üçüncü günü türkiyəli müəllim heyətinin Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Muzey-Sərgi Kompleksinə səfəri təşkil olunub. Proqramın sonunda iştirakçılar sertifikatla mükafatlandırılıb.



*Baykal Biçer*

campus tour for the guests.

The following day, a seminar titled " Fatih Project and its Impact on Social Student Education," led by Hafize Er Turkures, was arranged. The seminar saw participation from faculty members and doctoral students of the School of Humanities, Education, and Social Sciences. Subsequently, Baikal Bicher delivered a lecture on the "Educational Values of Türkiye," concluding the event with a visit to the Ateshgah Temple.

On the third day, Turkish teaching staff visited the Museum-Exhibition Complex of the Azerbaijan State Art Academy.Certificates were awarded to participants at the conclusion of the program.



*Fatimə Vəliyeva, Aygün Verdiyeva, Baykal Biçer, Hafize Er Türküresin, Arzu Bədəlova,Turan Əlizadə, Leyla Əliyeva*



*Südabə Davaran, Hamlet İsaxanlı,Fəridə Tatardar*

# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ RUSİYA FEDERASİYASININ BİRLƏŞMİŞ NÜVƏ TƏDQİQATLARI İNSTİTUTUNDA

Yanvarın 23-24-də Xəzər Universitetinin nümayəndələri Rusiya Federasiyasının Dubna şəhərində Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda (BNTİ) işgüzar səfərdə olublar. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının başçılıq etdiyi nümayəndə heyətinə universitetin Fizika və elektronika departamentinin müdiri Dr. Fəridə Tatardar və biotibbi, tibbi-kimyəvi sahə üzrə professor, universitetin tədqiqat qrupunun rəhbəri Südabə Davaran daxil idi.

Nümayəndə heyəti BNTİ -nin direktorluğu ilə görüşmüş, V. P. Celepov adına Nüvə problemləri laboratoriyasının üzvləri ilə keçirilən geniş seminarda iştirak edib.

İnstitutun direktorluğu ilə görüşdə tərəflər Azərbaycan və BNTİ arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində perspektivləri müzakirə ediblər. Qarşılıqlı əlaqələrin genişləndirilməsi sahəsində əsasən mühəndis, təbiət və informasiya elmləri, fizika, kimya, biologiya , nanotexnologiya və riyaziyyat elmləri nəzərdə tutulub.

Görüşdə BNTİ tərəfindən qurumun direktoru Qriqori Trublikov, direktor müavinləri Sergey Dmitriyev və Lçezar Kostov, baş elmi katib Sergey Nadelko, Nüvə problemləri laboratoriyasının direktoru Yevgeniy Yakuşev, Beynəlxalq əlaqələr departamentinin rəhbəri Otilia-Ana Kulikov, BNTİ - də Azərbaycan milli qrupunun rəhbəri, BNTİ-nin Nüvə Problemləri Laboratoriyasının baş elmi işçisi Nazim Hüseynov iştirak ediblər.

Nüvə problemləri laboratoriyasında keçirilən seminar səfərin əsas məqsədi idi. Nümayəndə heyətinin üzvləri Xəzər Universitetinin fəaliyyətinin əsas istiqamətləri və elmi tədqiqat işləri barədə iştirakçılara ətraflı məlumat veriblər. Qarşılıqlı fikir mübadiləsi prosesində universitetin dünya miqyasında elm və təhsil sahəsində beynəlxalq əlaqələrinin kifayət qədər genişləndirildiyi qeyd olunub. Müzakirə zamanı Xəzər Universiteti ilə qarşılıqlı əlaqə çərçivəsində Yaxın Şərqdə BNTİ ilə əlaqələrin möhkəmləndirilməsi məsələsi də gündəmə gəlib. Qərara alınıb ki, Xəzər Universitetində təhsil alan müxtəlif ölkələrin tələbələri BNTİ-nin təhsil proqramı əsasında təcrübə keçsinlər. Xəzər Universitetinin nümayəndələri də öz çıxışlarında BNTİ-nin alimlərinin tədris prosesinə cəlb olunmalarının bütövlükdə elmi nailiyyətlərə yiyələnməkdə əhəmiyyətli olacağını nəzərə çatdırıblar. Prof. Akad. Hamlet İsaxanlı xüsusilə vurğulayıb ki, əsas məqsəd Azərbaycan Respublikasının elm ocaqları ilə BNTİ arasında elmi əlaqələrin möhkəmləndirilməsidir. Qeyd edib ki,"Bizim üçün Birləşmiş institutun yeddi laboratoriyasında nümayiş olunan bütün sa-

hələr önəmlidir. Bu gün biz kifayət qədər qarşılıqlı əlaqələr kontekstində konkret planları müzakirə etdik və bu prinsipə uyğun olaraq öz layihələrimizi birlikdə həyata keçirəcəyik."

Yaxın gələcəkdə Birləşmiş institutun aparıcı alimləri ilə Bakı şəhərində konfrans və seminarların, eləcə də tələbələrlə görüşlərin keçiriləcəyi də ehtimal olunur.



*Qriqori Trublikov*

Görüş çərçivəsində nümayəndələr elmi-tədqiqat işlərinin xırda detalları ilə, BNTİ-nin elm infrastrukturu ilə yaxından tanış olmaq, eləcə də institutun laboratoriyasında çalışan alimlərlə ünsiyyət qurmaq imkanı qazanıblar. Səfər zamanı qonaqlar Radiasiya biologiyası, Nüvə problemi, İnformasiya texnologiyaları və Nüvə reaksiyaları laboratoriyalarının fəaliyyət ilə də yaxından tanış olublar. Onlar BNTİ-nin Tədris-elm mərkəzində institutun fəaliyyətində mühüm rol oynayan mütəxəssis hazırlığı məsələsini müzakirə ediblər.

Xəzər Universiteti nümayəndələrinin Rusiyanın məşhur nüvə mərkəzinə işgüzar səfəri perspektivli nəticələrlə başa çatıb.



*Nazim Hüseynov, Otilia-Ana Kulikov,Lçezar Kostov, Sergey Dmitriyev, Qriqori Trublikov, Hamlet İsaxanlı, Südabə Davaran, Sergey Nadelko, Yevgeniy Yakuşev, Fəridə Tatardar*



# İLİN ƏN BÖYÜK HADİSƏLƏRİ: TORPAQ VƏ ƏDALƏT ZƏFƏRİ

**Akif Əlizadə**

**Vəkil, Xəzər Universitetinin baş müəllimi**

*"Yeni müsavat" qəzetinin 28 dekabr 2023-cü il tarixli nömrəsində dərc olunmuş məqaləni oxucularımıza təqdim edirik.*

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu ilə başlayan hüquq islahatları ən yaxın tariximizə qədər davam edir və görünən odur ki, ölkə rəhbərliyi müasir çağırışlara uyğun olaraq bu islahatları davam və inkişaf etdirməkdə israrlıdır.

Konstitusiyamızın qəbulundan bu vaxtadək hüquqi dövlət quruculuğu prosesində xeyli əhəmiyyətli işlər görülmüş, dövlətimizin ali məqsədi olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha güclü təmin edilməsi üçün mütərəqqi və çoxsaylı qanunlar qəbul edilmiş, məhkəmə-hüquq sistemi sivil qaydalara uyğun olaraq yenilənmiş və bu proses fasiləsiz olaraq aparılmaqdadır.

Təkcə son 5 ildə məhkəmə-hüquq sistemini əhatə edən mütərəqqi dəyişikliklərin az bir hissəsini sadalamaqla deyə bilərik ki, bu sahədə daha çox inkişafa nail olmaq üçün ortada ciddi iradə var.

Bu dövrdə məhkəmə sisteminin maddi-texniki bazası xeyli gücləndirilmiş, Bakı şəhərində və regionlarda yeni və müasir inzibati binalar məhkəmələrin, dolayısı ilə vətəndaşlarımızın istifadəsinə verilmişdir. 20 il əvvəl obyektiv ya subyektiv səbəblərdən məhkəmə iclaslarının xeyli hissəsi hakimlərin xidməti kabinetlərində aparılırdısa, indi məhkəmə iclasları hətta ən ucqar rayonlarda belə qanunla nəzərdə tutulmuş qaydada və mühakiməyə uyğun müasir tələblərə cavab verən şəraitdə keçirilir.

Dövlət orqanları ilə vətəndaş arasında hüququn pozulması ilə bağlı işlərə baxan ixtisalaşdırılmış ayrıca inzibati məhkəmənin yaradılması xüsusi vurğulanmalıdır. Müşahidəçilər bunu dövlətin insan hüquq və azadlıqlarının müdafiəsinə olan diqqətinin göstərici hesab edir.

Elektron məhkəmə sisteminin istifadəyə verilməsi, mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının elektron qaydada aparılması insan hüquqlarının müdafiəsini daha da asanlaşdırmaqla, bu sahədə süründürməçilik və bürokratiyaya demək olar son qoyub.

Mübahisələrin məhkəməyə qədər həlli üçün mediasiya prosesinin tətbiq edilməsi,

ailə, əmək və sair mübahisələr üzrə mediasiya prosesinin tətbiqinin məcburi olması məhkəmələrdə iş yükünün azaldılmasına, hüquqlarının müdafiəsi məqsədilə vətəndaşların az vəsait xərcləməsinə, uzun və yorucu məhkəmə çəkişmələrinə cəlb edilməməsinə xidmət edir.

İnsan hüquq və azadlıqlarının daha geniş həcmdə təmini üçün mülki işlərin həllində məhkəmənin tətbiq etdiyi hüquqi aktların siyahısına Azərbaycan Respublikasının tərəfdar olduğu beynəlxalq müqavilələrin əlavə edilməsi də xüsusi vurğulanmalıdır. Bu da təbiidir ona görə ki, ölkəmiz müstəqilliyinin ilk illərindən istər beynəlxalq, istərsə də regional (Avropa) səviyyədə olan insan hüquq və azadlıqlarının müdafiəsinə dair bütün sənədlərə qoşulmaqla onları milli qanunvercilik sistemimizin tərkib hissəsinə çevirib.

Məhkəmə icraatının videokonfrans əlaqə sistemindən istifadə edilməklə həyata keçirilməsi, vəkilin bütün məhkəmə instansiyalarında dövlət hesabına iştirakının təmin olunması ədalət mühakiməsinin hamı üçün əlçatan olmasına xidmət etmiş olur.

Mülki işlər və kommersiya mübahisələrində ədalətli məhkəmə araşdırmasının təmini üçün işlərin baxılması və həll edilməsinə dair ağlabatan müddətlərin müəyyən edilməsi, apellyasiya və kassasiya şikayətlərinin qanunda nəzərdə tutulmuş forma və məzmununa riayət edilməsinin məcburi olması, habelə kassasiya instansiyası məhkəməsində icraat zamanı hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi son illərin ən mütərəqqi dəyişiklikləri hesab edilir.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, həmçinin məhkəməyə ictimai etimadın daha çox güclənməsinə xidmət edən hüquq islahatlarının az bir hissəsini sadalasam da, cəmiyyətdə "səssiz" keçən son islahat xüsusi qeyd olunmalıdır.

Qeyd etdiyimiz hüquq islahatlarının təməlini qoyan Konstitusiyamızda Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi və unitar respublika elan edilir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilməklə məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Dövlət hakimiyyətinin bir qolu kimi məhkəmə hakimiyyətinin nə qədər müstəqil olması, digər hakimiyyət qollarından asılı olub-olmaması hüquqi dövlət quruculuğu müddətində uzun illər müzakirə predmeti olsa da, nəhayət ki, tezliklə yola salacağımız 2023-cü ildə bu müzakirələrə birdəfəlik son qoyan ciddi dəyişikliklər oldu.

Təbii ki, 2023-cü ilin ən əsas hadisəsi Ali Baş Komandanımız İlham Əliyev cənablarının Qarabağın mərkəzi Xankəndidə, Xocalıda və digər şəhərlərdə üçrəngli bayrağımızı ucaldaraq mümkünsüz görünəni mümkün etməsi oldu.

2023-cü il həm də çox böyük hüquqi dövlət islahatının reallaşması ilə də tariximizə yazıldı.

Azərbaycan Respublikası Prezidentinin 04 aprel 2023-cü il tarixli Sərəncamı ilə İnam Kərimov Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edildi.

Az sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə "Məhkəmə-Hüquq Şurası haqqında" qanuna mühüm dəyişikliklər edilərək məhkəmə hakimiyyətinin tam müstəqilliyi nəzəri və praktik olaraq təmin edildi. Qanuna edilən dəyişikliklər sözün əsl mənasında inqilabi hüquq islahatları olmaqla hüquq dövlətinin təməlini daha da möhkəmlətdi.

9 iyun 2023-cü il tarixli qanunla "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanununa əlavə və dəyişikliklərin edilməsi, habelə bu qanunun icrası ilə əlaqədar "Azərbaycan Respublikasının Ədliyyə Nazirlyi haqqında Əsasnamədə" dəyi-

*(Ardı səh.58 - də)*

şiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 01 noyabr 2023-cü il tarixli Fərmanı hər hansı mübahisə yeri qoymadan hüquqi dövlətin təməl prinsipi olan hakimiyyətlərin bölünməsi prinsipinə tam əməl olunmasını təmin etdi.

Məhkəmə-Hüquq Şurası haqqında qanuna edilən dəyişikliyə görə məhkəmə hakimiyyətini idarə edən Məhkəmə-Hüquq Şurasının 15 üzvündən üçdə ikisi – 10 nəfəri məhkəmə hakimiyyətinin təmsilçiləri, qalan 5 nəfər üzvündən ikisi icra və qanunverici hakimiyyətin, daha 3 üzvü isə vəkillik təsisatının, hüquqşünas alim və nüfuzlu hüquq ictimaiyyətinin nümayəndəsi oldu.

Dəyişikliklərin ən önəmli hissəsi isə Məhkəmə-Hüquq Şurasının sədrinin Məhkə¬mə-Hüquq Şurasının hakim üzvləri sırasından Məhkəmə-Hüquq Şurası üzvlərinin sadə səs çoxluğu ilə seçilməsidir. Ali Məhkəmənin yeni təyin olunmuş sədri İ.Kərimov sözügedən dəyişikliklərə uyğun olaraq yenidən formalaşan Məhkəmə-Hüquq Şurasının sədri seçildi. İnam Kərimov ölkə və beynəlxalq hüquq ictimaiyyəti arasında yetərincə nüfuzlu, ölkəmizin hüquq siyasəti və dövlət quruculuğuna mühüm töhvələr verən peşəkar hüquqşünas kimi tanınır və qəbul edilir. Və belə bir şəxsin məhkəmə hakimiyyətinin başına gətirilməsi ölkə başçısının uğurlu kadr siyasəti kimi qəbul olunmaqla yanaşı islahatların daha da dərinləşəcəyindən xəbər verir.

Adıçəkilən qanuna dəyişiklik və fərman cəmiyyətdə səssiz ötüşsə də, fikrimcə məhkəmə hakimiyyətinin tam olaraq müstəqil olmasını təmin edən ciddi islahat hesab olunur. Ona görə ki, qanuna edilən bu dəyişiklik və sözügedən fərman məhkəmə hakimiyyətinin idarəçiliyini tam olaraq elə bu hakimiyyət təmsilçilərinin özünə verdi.

Dəyişikliklə Məhkəmə Hüquq Şurasının üzvlüyündə 1 üzvün qanunverici, 1 üzvün isə icra hakimiyyəti təmsilçisisinin olmasına, Azərbaycan Respublikasının Prokurorluğuna üzvlükdə yer verilməməsi fikrimcə tamamilə əsaslıdır. Ona görə ki, sivil (beynəlxalq) təcrübə də bunu diktə edir.

Daha bir önəmli məqam qanuna "hakimlərin konfransı" maddəsinin əlavə edilməsidir. Hakimlərin konfrasında bütün məhkəmələrin, o cümlədən kassasiya və apellyasiya instansiyası məhkəmələrinin, eləcə də birinci instansiya məhkəməsi olan ixtisaslaşdırılmış məhkəmələrin və rayon (şəhər) məhkəmələrinin nümayəndələri təmsil olunur. Hakimlərin konfransı Məhkəmə-Hüquq Şurasının hakim üzvlərini və hüquq ictimaiyyətinin nümayəndəsini seçir. Bu isə o deməkdir ki, mənsub olduqları məhkəmə hakimiyyətinin idarə edilməsi üçün yaradılan qurumun – Məhkəmə-Hüquq Şurasının həlldeci səsə malik üzvlərini hakimlər özləri seçməklə müstəqilliklərini təmin etmiş olurlar.

Hazırda görünən odur ki, məhkəmə hakimiyyətini idarə edənlərin əsas hədəfi bu sahəyə dair daha mütərəqqi qanunların qəbul edilməsi üçün təşəbbüslər etmək, məhkəmə təcrübəsini daha da təkmilləşdirmək, bir sözlə islahatları daha da dərinləşdirməklə qanunun aliliyinin tam təmin olunmasına, ədalət mühakiməsinin səmərəliliyinin və məhkəməyə etimadın daha da artmasına nail olunsun.

Arzu olunandır ki, qeyd edilən islahatlardan sonra ölkəmizdə ədalət mühakiməsi günü də olsun. İnanıram ki, ədalət və ya ədalət mühakiməsi gününün təyin olunması çox da uzaqda olmayacaq.

***https://musavat.com/news/ilin-en-boyuk-hadiseleri-torpaq-ve-edalet-zeferi-meshur-vekilin-yazisi_1033141.html***

## "XƏZƏR"İN MÜƏLLİMİNƏ HƏSR OLUNMUŞ MƏQALƏ

525.az 525-ci qəzet

## ARTICLE DEDICATED TO KHAZAR UNIVERSITY FACULTY MEMBER

14 dekabr 2023-cü ildə nəşrdən çıxan "525-ci qəzet"də Əli Bəbiroğlunun "Xəzər"in müəllmi, şair-publisist Qardaşxan Əzizxanlıya həsr olunmuş yazısı dərc olunmuşdur. Yazısını "İnsan ömrünə tale kimi gələn şeirlər" adlandıran müəllif burada Qardaşxan Əzizxanlını həm dost kimi, həm şair kimi vəhdətdə poetik üslubla təsvir etmişdir. Qəhrəmanını "yerlə-göylə əlləşən" şair adlandıran müəllif onun yaradıcılıq yoluna və bu yoldakı mənəvi mübarizəsinə xüsusi diqqət çəkmişdir.

Əli Bəbiroğlu şairin istedadını, gördüyü işləri təsvir etməklə yanaşı, ondan daha böyük ümidləri olduğunu da xüsusi sətiraltı mənalarla vurğulayır.

On December 14, 2023, an article was featured in the "525th newspaper" dedicated to Gardashkhan Azizkhanli, a faculty member at Khazar University, authored by Ali Babiroglu. The writer, who labels his prose as "Poetry that unfolds in human existence as fate", eloquently portrays Gardashkhan Azizkhanli both as a friend and a poet. Referring to him as a poet "fighting between the Earth and the sky", the author places significant emphasis on his artistic journey and the spiritual challenges faced along this path.

Ali Babiroglu not only commends the poet's talent and achievements but subtly expresses greater expectations for him.

*https://klv.az/2023/12/15/ali-bebiroglu-dost-omrune-tale-kimi-gelen-seirler/*

METAFİZİKA

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİNİN MƏQALƏSİ "METAFİZİKA" JURNALINDA

## LECTURER`S ARTICLE OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT IN "METAPHYSICS" JOURNAL

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Ruslan Xəlilovun "Qərbi Avropa personalizminin fəlsəfi təhlili" adlı məqaləsi "Metafizika" jurnalında (2023, Cild 6, № 4, s. 206-215) dərc edilmişdir.

Qeyd edək ki, "Metafizika" Azərbaycanda "Fəlsəfə və interdisiplinar" elmlər sahəsində beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalıdır.

The article "Philosophical analysis of Western European personalism" by Ruslan Khalilov, a lecturer of the Department of Political Sciences and Philosophy of Khazar University, was published in "Metaphysics" journal (2023, Vol. 6, No. 4, pp. 206-215).

Note that "Metaphysics" is a journal of international philosophical and interdisciplinary studies in the field of "Philosophy and interdisciplinary" sciences in Azerbaijan.

*https://metafizikajurnali.az/storage/images/site/files/Metafizika-24/Metafizika.Vol.6%2CNo.4%2CSerial.24%2Cpp.206-215.pdf*

## NAİLƏXANIM MUZEYİ TƏQDİM EDİR: "TARİXDƏ İZ SALAN, AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ TÖHFƏ VERƏN QADINLAR" SERİYASININ NÖVBƏTİ KİTABLARI

# "TACLI XANIM"




Seriyanın (redaktoru Hamlet İsaxanlı) "Taclı xanım" adlı 9-cu kitabı Xəzər Universitetinin nəşriyyatında çapdan çıxmışdır.Kitabın müəllifi Şahin Fazil və Hamlet İsaxanlıdır.

Kitab "Taclı xanım kimdir" başlıqlı bölümlə başlayır və əsərin qəhrəmanı haqqında qısa ensiklopedik məlumat verilir. Sonrakı bölümlərdə - "Şah İsmayılın Taclı xanımla evlənməsi", "Çaldıran döyüşü", "Çaldıran döyüşü və qadınlar", "Çaldıran döyüşü və Taclı xanım" və "Taclı xanım Şah Təhmasib dövründə" adlı bölümlərdə qəhrəmanın həyatı dolğun qələmə alınır və Səfəvilər dövlətinin siyasi həyatında Taclı xanımın mühüm rol oynaması faktlarla oxucuların nəzərinə çatdırılır.

"Xülasə"də qeyd olunur ki, Ağqoyunlu və Qaraqoyunlularda olduğu kimi, Səfəvilərdə də qadınlar həyatda və dövlət işlərində, diplomatiya və savaşda kişilərlə yanaşı olmuşlar. Onlardan biri də Taclı xanımdır.

Kitabdakı rəsm işinin bir qismini Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin müəllimləri Nigar Əliyeva, İskəndər Məmmədov və Həsənağa Həsənov yerinə yetirmişlər.

# "TAJLI KHANIM"

The 9th book of the series (edited by Hamlet Isakhanli) titled " Tajli Khanim " was published by Khazar University publishing house. The author of the book is Shahin Fazil and Hamlet Isakhanli.

The book commences with a chapter named "Who is Tajli Khanim," offering concise encyclopedic insights into the protagonist. Subsequent chapters, including "Shah Ismayil's Marriage to Tajli Khanim," "Battle of Chaldiran," "Battle of Chaldiran and Women," "Battle of Chaldiran and Tajli Khanim," and "Tajli Khanim during the Reign of Shah Tahmasib," comprehensively depict the life of the heroine, highlighting Tajli Khanum's significant role in the political landscape of the Safavid state.

In the "Summary" is also noted that just like Aggoyunlu and Karagoyunlu, Safavid women were alongside men in life and state affairs, diplomacy and war. One of them is Tajli Khanim. Some of the drawings in the book were done by Nigar Aliyeva, Iskander Mammadov and Hasanaga Hasanov, teachers of the Architecture and Design Department of Khazar University.

## NAILEKHANIM MUSEUM PRESENTS: THE NEXT BOOKS OF THE SERIES" WOMEN WHO MADE A MARK IN HISTORY AND CONTRIBUTED TO AZERBAIJANI CULTURE"

# "NİGAR RƏFİBƏYLİ"




Seriyanın (redaktoru Hamlet İsaxanlı) "Nigar Rəfibəyli" adlı 10-cu kitabı Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxmışdır. Kitabın müəllifləri Nigar Zeynalova və Fidan Rzayevadır.

Kitab "Böyük nəslin münəvvər qızı" ilə açılır və "Şanlı nəsillərin yadigarı"nda Xalq şairi Nigar Rəfibəylinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilir. Kitabda şairin şeirlərindən nümunələr də yer almışdır. Həmçinin, qızı Fidan Rzayevanın anasının xatirəsinə həsr etdiyi iki şeiri də çap olunmuşdur.

Nigar Rəfibəyli haqqında oğlu Anar, qızları Fidan və Təranə, gəlini Zemfira Səfərova, nəvələri Tural, Aysel və Günelin xatirələri səmimi yazılışı ilə maraqla oxunur.

Kitabda zəngin fotomaterialdan istifadə olunmuşdur ki, bu vasitə ilə oxucu Nigar Rəfibəyli və ailəsi haqqında dolğun əyani məlumat əldə edir.

Sonda Nigar Rəfibəylinin Gəncədə Xan bağında quraşdırılmış abidəsi (heykəltəraşlar Münəvvər Rzayeva və Fəxrəddin Əliyev) və Gəncədəki 43 saylı tam orta məktəbdə qoyulmuş büstünün (heykəltəraş Məşdi Rüstəmov) fotoları da oxuculara təqdim olunur.

Seriyanın kitabları, bir qayda olaraq, nəfis şəkildə çap edilir.

# "NIGAR RAFIBEYLI"

The 10th volume of the series, titled "Nigar Rafibeyli" and edited by Hamlet Isakhanli, has been released by the Khazar University Publishing House. The authors of the book are Nigar Zeynalova and Fidan Rzayeva.

The book opens with " The Wise Daughter of a Great Family" and "The Legacy of Glorious Generations" delves into the life and achievements of the People's Poet Nigar Rafibeyli. Additionally, readers will find a selection of the poet's works, including two poems penned by her daughter Fidan Rzayeva in memory of her mother.

The heartfelt memoirs shared by her son Anar, daughters Fidan and Tarana, daughter-in-law Zemfira Safarova, and grandchildren Tural, Aysel, and Gunel about Nigar Rafibeyli are read with interest because of their sincere writing.

The book is accompanied by a rich of photographic material, offering readers a vivid visual portrayal of Nigar Rafibeyli and her family. Concluding with images of Nigar Rafibeyli's monument in the Khan Garden in Ganja, crafted by sculptors Munavvar Rzayeva and Fakhreddin Aliyev, and her bust at Secondary School No. 43 in Ganja, sculpted by Mashdi Rustamov, the publication maintains the series' tradition of elegant printing.

# ERASMUS+ (KA171) TƏLƏBƏ MÜBADİLƏ PROQRAMINDA İŞTİRAK EDƏCƏK TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

# ENGAGEMENT WITH KHAZAR UNIVERSITY STUDENTS ENROLLED IN THE ERASMUS+ (KA171) EXCHANGE PROGRAM



*Fatimə Vəliyeva*



Yanvarın 25-də Erasmus+ KA171 Tələbə Mübadilə Proqramı çərçivəsində 2023/2024-cü tədris ilinin yaz semestrində Xəzər Universitetinin tələbələri müxtəlif tərəfdaş universitetlərdə təhsil alacaqlar.

Görüş ərzində Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva Erasmus+ Tələbə Mübadilə Proqramı üzrə tələbələrə növbəti mərhələlər haqqında ətraflı məlumat verdi. Sonra tələbələrin sualları cavablandırıldı.

Qeyd edək ki, tələbələr Sabancı Universiteti (Türkiyə), Kütahya Dumlupinar Universiteti (Türkiyə), Wroclaw Universiteti (Polşa) və Çukurova Universitetində (Türkiyə) təhsillərini davam etdirəcəklər

On January 25, Khazar University students are set to embark on their academic journey at various partner universities for the spring semester of the 2023/2024 academic year under the Erasmus+ KA171 Student Exchange Program. Head of the International Relations Department, Fatima Valiyeva, provided comprehensive information about the upcoming phases to the students participating in the Erasmus+ Student Exchange program during the meeting. Then the students' questions were answered.

Note that the students will pursue their studies at Sabancı University (Türkiye), Kutahya Dumlupinar University (Türkiye), Wroclaw University (Poland), and Çukurova University (Türkiye).

## ƏMƏKDAŞLAR ERASMUS+ 3E-TƏRƏFDAŞLIQ LAYİHƏSİNİN AÇILIŞ TƏDBİRİNDƏ

Yanvarın 23-26-da Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva Gürcüstanın Tiflis şəhərində Biznes və Texnologiya Universitetində (BTU) "Azərbaycan, Gürcüstan və Ukrayna ilə Tərəfdaşlığın Qarşılıqlı Gücləndirilməsi İstiqamətində Avropa Enerji Effektivliyi - 3E-Tərəfdaşlıq" adlı Erasmus+ CBHE layihəsinin rəsmi açılış tədbirində iştirak ediblər.

İclas BTU-da davam edən beynəlxalq layihələrin tədqiqini, 3E-Tərəfdaşlıq layihəsinin əsas məqsəd və strategiyalarının araşdırılmasını, konkret tapşırıq və məsuliyyətlərin təfərrüatlarının təqdim edilməsini, gözlənilən nəticələr, layihənin effektiv idarə edilməsi üçün istifadə olunan idarəetmə üsulları və vasitələrin müzakirəsini, ilkin addımların nəzərdən keçirilməsini, həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətlər və 3E-Tərəfdaşlıq ilə əlaqəli maliyyə aspektlərinin həlli kimi məsələləri əhatə edib.

Xəzər Universitetinin və tərəfdaş universitetlərin nümayəndələri öz beynəlxalq layihələrini və enerji ilə bağlı təhsil və tədqiqatlar sahəsində potensiallarını vurğulayan təqdimatlarla çıxış ediblər. 3E-Tərəfdaşlıq layihəsinin məqsədi Azərbaycan, Gürcüstan və Ukraynadakı ali təhsil müəssisələrini modernləşdirmək və gücləndirmək, eyni zamanda onların enerjiyə davamlılıq və regionlararası əməkdaşlıq imkanlarını artırmaqdır. Bu məqsədə nail olmaq üçün layihə iki əsas məsələyə diqqət yetirir:

- Müasir səriştələri inkişaf etdirmək üçün enerji səmərəliliyi sahəsində kurrikulumun təkmilləşdirilməsinin birgə layihələndirilməsi;
- İştirakçı ali məktəblər arasında Enerji Laboratoriyaları və Yaşıl Şəbəkə üçün əməkdaşlıq və şəbəkə strukturlarının yaradılmasının asanlaşdırılması.

Layihə bu məsələləri vurğulayaraq, hədəf ölkələrin təhsil və inkişaf çərçivələri daxilində innovasiya və davamlı inkişafı təşviq etmək məqsədi daşıyır.

## KHAZAR UNIVERSITY STAFF PARTICIPATES IN KICKOFF EVENT OF ERASMUS+ 3E-PARTNERSHIP PROJECT

On January 23-26, Dr. Jeyhun Mammadov, the Dean of the School of Economics and Management, and Dr. Fakhranda Afandiyeva, the Dean of the School of Natural Sciences and Engineering, participated in the official Kickoff Event of the recently funded Erasmus+ CBHE project titled "European Energy Efficiency towards Mutually Reinforcing Partnership with Azerbaijan, Georgia, and Ukraine - 3E-Partnership" at the Business and Technology University (BTU) in Tbilisi, Georgia.

The meeting encompassed exploring ongoing international projects at BTU, delving into the core objectives and strategies of the 3E-Partnership project, detailing specific tasks and responsibilities, outlining expected outcomes and deliverables, discussing management techniques and tools employed for effective project administration, reviewing initial steps and activities planned for implementation, and addressing the financial aspects associated with the 3E-Partnership.

Additionally, representatives of Khazar University and partner Universities delivered presentations highlighting their international projects and potential in energy-related education and research.

The goal of the 3E-Partnership project is to modernize and empower higher education institutions in Azerbaijan, Georgia, and Ukraine while enhancing their capacities for energy resilience and cross-regional cooperation. To accomplish this objective, the project focuses on two main pillars:

- Collaboratively designing curriculum enhancements in energy efficiency to develop modern competencies.
- Facilitating the creation of collaboration and networking structures for Energy Labs and a Green Network among the participating HEIs.

By emphasizing these pillars, the project aims to foster innovation and sustainable development within the educational and developmental frameworks of the target countries.

## “RİTORİKA” ÜZVLƏRİ ŞEİR MÜSABİQƏSİNDƏ

Xalq şairi Vaqif Səmədoğlunun 85 illik yubileyi münasibətilə Vaqif Səmədoğlu Mərkəzi şairin şeirlərinin ən yaxşı qiraəti üçün müsabiqə elan edib. Münsiflər heyətində şair, esseist Səlim Babulla, rejissor, pedaqoq Mahmənzər Hüseynova, şair Fərid Hüseyn, aktyor, qiraətçi Kamran Yunisli təmsil olunublar. Müsabiqəyə Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin “Ritorika” klubunun üzvləri Sənur Yaqubov və Aysel Əzizova da qatılıblar.

Yanvarın 28-də görkəmli şair-dramaturqun Anım Günündə müsabiqə qalibləri Vaqif Səmədoğlu Mərkəzinə dəvət olunaraq, onlara ədibin çoxcəhətli yaradıcılığını əhatə edən kitab və şeirlərinin səsləndirildiyi disklər hədiyyə olunub. Tədbirin sonunda münsiflər heyətinin üzvləri müsabiqə iştirfakçılarına bədii qiraət üzrə faydalı tövsiyələr veriblər və onları maraqlandıran sualları cavablandırıblar.

Vaqif Səmədoğlu Mərkəzinin sədri Dr. Nüşabə Vəkilova şairə məxsus olan təsbehi Xəzər Universitetinin IV kurs tələbəsi Sənur Yaqubova, Vaqif Səmədoğlunun qələmə aldığı pritçalardan ibarət olan “Gürzəçöl yazıları” kitabını isə tədqiqata cəlb olunması üçün klubun koordinatoru Dr.Sevinc Qəmbərovaya hədiyyə edib.

## "RHETORIKA" PARTICIPANTS IN POETRY CONTEST

In celebration of the 85th anniversary of People's poet Vagif Samadoglu, the Vagif Samadoglu Center initiated a competition for the finest recitation of the poet's works. The judging panel included poet and essayist Salim Babulla, director and educator Mahmanzar Huseynova, poet Farid Huseyn, and actor and reciter Kamran Yunisli. Additionally, participants from the "Rhetoric" club of Khazar University's Department of Languages and Literatures Sanur Yagubov and Aysel Azizova took part in the competition.



*Aysel Əzizova, Kamran Yunisli, Sənur Yaqubov, Sevinc Qəmbərova, Səlim Babulla*

On January 28, on the Commemoration Day of the outstanding poet-playwright, the winners of the contest were invited to the Vagif Samadoglu Center, where they were presented with books and CDs of the writer's multifaceted creativity. Following the event, jury members offered participants valuable advice on artistic recitation and addressed their questions.

Dr. Nushaba Vakilova, who leads the Vagif Samadoglu Center, gifted the poet's rosary to Sanur Yagubov, a fourth-year student at Khazar University, and presented the book "Gurzachol writings" authored by Vagif Samadoglu, containing paroemias, to Dr. Sevinj Gambarova, the club's coordinator, in recognition of her research contributions.






*Ülvi Babasoy*

## QƏBƏLƏ "AKSİOM" KURSUNUN DİNLƏYİCİLƏRİ VƏ MÜƏLLİM HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ

## STUDENTS AND TEACHING STAFF OF GABALA "AXIOM" COURSE AT KHAZAR UNIVERSITY

Yanvarın 30-da Qəbələ "Aksiom" kursunun dinləyiciləri və müəllimləri ilə Xəzər Universitetində görüş keçirilib. Rektor Dos. İradə Xəlilova giriş sözü ilə qonaqları salamladıqdan sonra universitetin əməkdaşı Ülvi Babasoy ali təhsil ocağı haqda təqdimatla çıxış edib və abituriyentlərin suallarını cavablandırıb

On January 30, a meeting was held with the students and teaching staff of Gabala "Axiom" course at Khazar University. Following a welcome from Rector Assoc. Prof. Irada Khalilova, university representative Ulvi Babasoy delivered a presentation on higher education and addressed the questions of the enrolees.



# DANİMARKA KRALLIĞININ NÜMAYƏNDƏ HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ

# DELEGATION FROM THE KINGDOM OF DENMARK AT KHAZAR UNIVERSITY





*Thierry Hoppe,Denni Annan, Arnoud Govaert, Hamlet İsaxanlı, İnqilab Əhmədov, Fatimə Vəliyeva*

Yanvarın 31-də Danimarka Krallığının Azərbaycan Respublikasındakı qeyri-rezident səfiri Denni Annan`ın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Xəzər Universitetində görüş keçirilib.

Görüşdə Danimarka Krallığının Azərbaycan Respublikasındakı qeyri-rezident səfiri Denni Annan, Danimarka Konsulluğunun fəxri konsulu Arnoud Govaert, Danimarka Xarici İşlər Nazirliyinin baş konsulu Thierry Hoppe, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak etmişlər.

Görüşdə bu ilin noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı və ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq istiqamətində fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Azərbaycan və Danimarka Krallığı arasında münasibətlərin əhəmiyyəti haqqında, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və Danimarka Krallığının təhsil müəssisələri ilə tərəfdaşlıq istiqaməti üzrə fikirlər səsləndirilib. Görüşdə Xəzər Universitetinin təhsil sistemi, tələbələrə təklif etdiyi proqramlar, təqaüdlər haqqında da məlumat verilib.

On January 31, Khazar University hosted a meeting with a delegation led by the non-resident ambassador of the Kingdom of Denmark to the Republic of Azerbaijan, Danny Annan.

The meeting was attended by the non-resident ambassador of the Kingdom of Denmark in the Republic of Azerbaijan Danny Annan, Honorary Consul of the Danish Consulate Arnoud Govaert, Consul General of the Danish Ministry of Foreign Affairs Thierry Hoppe, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli, Dean of the Graduate School of Economics and Business Ingilab Ahmadov, Fatima Valiyeva, head of the International Relations Department.

At the meeting, views were exchanged regarding the 29th session of the Conference of the Parties to the UN Framework Convention on Climate Change (COP29), which will be hosted by Azerbaijan in November this year, and in the direction of cooperation in the field of environmental protection.

Additionally, opinions were expressed about the importance of relations between Azerbaijan and the Kingdom of Denmark, enhancing of bilateral relations and the direction of partnership with educational institutions of the Kingdom of Denmark. In the meeting, information was also provided about Khazar University's educational system, programs offered to students, and scholarships.

# XƏZƏR UNİVERSİTETİ POLŞA SƏFİRİNƏ KİTAB HƏDİYYƏ ETDİ

# KHAZAR UNIVERSITY GIFTS BOOK TO POLISH AMBASSADOR




Xəzər Universiteti tərəfindən Polşa Respublikasının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Rafal Poborski`yə Polşa və Amerika tarixçisi Tadeuş Svyatoçovski`nin, "Rusiya və Azərbaycan: Sərhədyanı bölgə keçid dövründə" adlı kitabı hədiyyə edilmişdir.

Kitab Tadeuş Svyatoçovski`nin, "Russia and Azerbaijan: A Borderland in Transition" adlı kitabının Azərbaycan dilinə tərcüməsidir. Tərcümə Xəzər Universiteti tərəfindən hazırlanmış və 2000-ci ildə universitetin nəşriyyatında çapdan çıxmışdır. Bu, Svyatoçovski`nin Azərbaycan dilində ilk kitabıdır.

Polşa səfiri Rafal Poborski hədiyyəyə görə Xəzər Universitetinə minnətdarlıq bildirmişdir.

Khazar University presented Rafal Poborski, Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Poland to Azerbaijan, with the book " Russia and Azerbaijan: A Borderland in Transition " authored by Polish and American historian Tadeusz Svyatochowski.

The book is a translation of the book "Russia and Azerbaijan: A Borderland in Transition" by Tadeush Svyatochowski into Azerbaijani. Khazar University undertook the translation effort, and the university's publishing house released it in 2000. This marks Svyatochowski's inaugural book in Azerbaijani.

Polish Ambassador Rafal Poborski expressed gratitude to Khazar University for the gift.



# OVÇU VƏ DURNA

*(Nəvəm Miray yatmayanda qoşduğum nağıl - layla)*

**İsaxan İsaxanlı**

Biri var idi, biri yox idi, bir ovçu var idi. Bu ovçu yaman insafsız idi, gözünə nə görünürdüsə, onu vurmalı idi. Hansı gün bir şey ovlamasa, o günü heç kefi olmazdı.

Payızın ilk günləri idi. Ovçu özünü bir az yaxşı hiss etmədiyi üçün həmin gün ova getməmişdi. Amma səhər tezdən tüfəngini götürüb həyətə çıxdı, o tərəf bu tərəfə göz gəzdirdi – ovlamaq üçün bir quş axtarırdı. Birdən göydən maraqlı bir səs gəldi. Ovçu başını qaldıranda qaqqıldaşa-qaqqıldaşa uçan bir durna qatarı gördü. Ovçu çox sevindi. Tez tüfəngini göyə qaldırıb lap qabaqda gedən durnanı nişan aldı. Bu zaman ovçunun arvadı bunu gördü və ərinin üstünə qışqırdı: "Sən nə edirsən, heç durnanı da vurmaq olar?" Bu səsdən ovçunun əli titrədi və açılan güllə qabaqdakı durnaya deyil, lap sonuncu durnaya dəydi. Durna düz ovçunun qabağına düşdü.

Göydəki durnalar güllə səsindən diksindilər və bir anlığa havada qanad saxladılar. Sonra gənc durnanı xilas etmək üçün aşağıya tərəf uçmağa başladılar. Bunu görən ovçu tüfəngini göyə sarı qaldırıb bir-neçə atəş açdı. Durnalar qorxdular və uçub getdilər.

Ovçu vurduğu durnaya yaxınlaşdı. Bu, gənc bir durna idi. Güllə durnanın qanadından dəymişdi. O yaralı idi və uça bilmirdi. Ovçu tez bıçağını götürüb durnanın başını kəsmək istədi. Bu zaman durna dərindən bir ah çəkdi, insan kimi dil açıb dedi: "Biz sevgilimlə ilk dəfə idi ki, durna qatarına qoşulmuşduq, uzaq ölkədəki qohumlarımızın yanına gedirdik. İndi sən məni öldürürsən, mən bundan sonra bir də heç vaxt sevgilimi görməyəcəm". Durna bunu deyib, ağlamağa başladı. Ovçu neçə illər idi ki, ovçuluq edirdi, amma heç vaxt görməmişdi ki, durna insan kimi danışsın. Durnanın sözlərindən və ağlamağından ovçunun ürəyinə insaf gəldi, durnanın başını kəsmədi. Bu zaman ovçunun arvadı əlində bir az su, spirt, yod və bint gətirdi. Onlar birlikdə durnanın yarasını yuyub təmizlədilər, sarıyıb evə apardılar.

O gündən ovçu və arvadı durnaya yaxşı-yaxşı qulluq etməyə başladılar. Onun üçün yaxşı, rahat bir dam da düzəltmişdilər. Durnanın yarası yavaş-yavaş sağalırdı. Nəhayət bir müddət keçdi və durna tam sağaldı. Ovçu onun yanına gəlib dedi: "Yaran tam sağaldı, sən artıq azadsan, uçub gedə bilərsən". Lakin durna haraya gedəcəyini bilmirdi, axı o ilk dəfə idi ki, durna qatarına qoşulmuşdu. Durna dedi: "Mən yolu tanımıram, hara gedəcəyimi də bilmirəm, mənə kömək edin". Ovçu və arvadı çox sevindilər: "Onda sən bizimlə birlikdə qal, sizin durnalar geri qayıdanda onlara qoşularsan". Durna bundan çox sevindi və onlar birlikdə yaşamağa başladılar.

Aylar keçdi. Durnaların geriyə köç zamanı gəldi. Ovçu, arvadı və durna hər gün göylərə baxır, durna qatarını gözləyirdilər.

Bir gün səhər tezdən ovçu həyətə çıxanda gözlərinə inanmadı. Həyət durnalarla dolu idi. Bu, həmin durnalar idi. Onlar ovçunu görəndə qorxdular, uçub getmək istədilər. Amma ovçu xoş bir səslə dedi: "Məndən qorxmayın. Mən o gündən bəri heç bir durnaya güllə atmıram. Sizin durna da sağ-salamat burdadır, gəlin göstərim". Bunu deyəndə durnalar qanad saxladılar, uçub getmədilər. Bu zaman ovçunun arvadı da gəldi. Onlar birlikdə durnanın yaşadığı dama yaxınlaşdılar. Qapını açdılar. Durna eşiyə çıxanda öz doğma durnalarını gördü. Hamısı çox sevindi, bir-biri ilə qucaqlaşıb öpüşdülər.

Gənc durna həyəcanla ora-bura baxır, gözləri ilə öz sevgilisini axtarırdı. Bunu görən durnaların başçısı şux bir səslə dedi: "Gör bir burda daha kim var?" Bu zaman damın dalından Miraya (Miray – nəvəmin adıdır) oxşayan uzun boylu, gözəl bir durna çıxdı. Bu, gənc durnanın sevgilisi idi. Onlar qucaqlaşıb öpüşdülər. Bu mənzərəni görən ovçu və arvadı da sevincdən ağlayaraq, bir-birinə sarıldılar.

Hamının kefi yerinə gəldi, durnalar yenidən havaya qalxdılar, öz ölkələrinə tərəf üz tutdular. Bir az uçmuşdular ki, iki durna qatardan ayrılıb aşağı endi, ovçunun evinin üstündə bir neçə dəfə dövrə vurdular. Bunlar sevgili durnalar idi. Onların qaqqıltısına ovçu və arvadı eşiyə çıxdılar. Durnalar onların yanına gəlib, hərəsi birinin çiyninə qondu. Sonra öpüşüb ayrıldılar.

Bundan sonra hər il həmin durna qatarı bu yerlərdən keçəndə iki durna qanad saxlayar, aşağı enər, ovçu və onun arvadı ilə görüşərdilər...



*Стихи в прозе*

# УНЫЛАЯ ПОРА! ОЧЕЙ ОЧАРОВАНИЕ! ПРИЯТНО МНЕ ТВОЯ ПРОЩАЛЬНАЯ КРАСА...

**Валех Мирза,**
**поэт - публицист**

...Эти чудесные строки великого поэта, как известно, посвящены осени, вдохновившей Пушкинский гений на создание самых замечательных его произведений... И каждый раз, встречая это поэтическое время года, мы заново воспринимаем их как символ, как гимн, посвященный подлинной красоте и прелести скромной осенней природы

Свое царственное шествие осень начинает с севера нашей необъятной страны... Там она коротка и проходит почти мгновенно, чередуя осенние"золотые" дни с затяжным ненастьем. Но в каждом уголке, даже в самом невзрачном на вид, оставляет она впечатление волшебной, немного грустной, но" чарующей сказки". Неповторима в это время и красота скошенных лугов,пахнущих душистым сеном,и прудов с почерневшей к осени прозрачной водой, усыпанной разноцветными листьями. Лес прекрасен всегда, но осенью он особенно хорош-вдумчивый, величественный скрашенный золотом увядания.

В наш южный город осень приходит позднее и задерживается недолго, радуя бакинцев теплой, сухой погодой, угощая изобилием фруктов и по-весеннему одаривая цветами. Эти дни невозможно усидеть дома:тихая, скромная,нежная осень властно требует общения с природой.

Как-то воскресным утром я бродил по улицам и любовался листопадом. Невысокое осеннее солнце освещало косыми лучами спавшие листья, блестевшие золотом и шумевшие под ногами прохожих. Небо было такого глубокого синего цвета, какого не увидишь в летний зной. В полупрозрачном воздухе, сквозь сизую дымку тумана вырисовывались очертания зданий, деревьев, транспорта. Казалось, вместе с природой этот большой город встречает осенний праздник, венчая труды хлопкоробов, виноградарей, чаеводов. Все вокруг дышало свежестью и покоем, здоровьем и чистотой.

Я шел в парк и остановился зачарованной великолепием красок и какой-то особенной тишиной.На небольшом расстоянии слышен был каждый шорох. Эта особая осенняя тишина, всегда располагает подумать, помолчать, помечтать. Ветра не было, но листья все падал и падали... Деревья осыпали прохожих,дорожки аллей, одинокие скамейки золотым дождем. На золотом, красноватом фоне увядающих деревьев и пестрого ковра спавших листьев гордо выступали в своей неувядающей красе вечнозеленые кипарисы и кавказские сосны. Приятно пахло утренней сыроватой свежестью. Среди пожелтевшей травы и блеклых запоздалых

цветов ярко цвели астры,и георгины, издавая острый, травяной,чисто осенний запах... Во всей природе несмотря на великолепие красок, сквозил оттенок какой -то нежной, покорной грусти, поэтической тоски. В этой тоске и ожидание зимы, и сожаление о прошедшем лете, оставившем о себе теперь только воспоминание-трогательное и печальное. Казалось, будто таинственная, волшебная музыка передает мне одновременно и настроение грусти, увядающей природы и торжества жизни. Ничто не нарушило ее чарующей мелодии…

Вдруг странный звук нарушал глубокое молчание парка, точно в только-что звучавшую лирическую мелодию ворвались терзающие душу, рыдающие аккорды, в один миг заполнившие пространство между землей и небом.  Это курлыкали журавли. Я затаил дыхание и замер, глядя на улетающий в туманную даль косяк. Птицы летели на юг,вслед за ушедшим летом, и пели свою прощальную песню... В этой песне была тоска по родным



местам, которые они покидали и обещание вернуться..

Они обязательно вернутся,, но не все.Сколько погибнет их в пути в дальних пролетах над морскими грозно штормящими пространствами!.. Никому не дано сосчитать. Никто из них не должен отстать или отлучиться от стаи, ведомой к цели опытным и смелым вожаком. Надо только махать и махать крыльями, пока есть силы, а устал, обессилел, тогда конец… И на коротких привалах никто не обогреет, не даст корму, не подлечит... Какая сила влечет их, несмотря на жестокие испытания, обратно на родину?! Никто не ответит. Это прекрасная и удивительная тайна природы…

У К. Паустовского есть замечательные слова о том, что "… шедевры существуют не только в искусстве, но и в природе. Разве не шедевр этот крик журавлей и их величавый перелет по неизменным в течение тысячилетий воздушным дорогам?"

Я помахал рукой вслед улетающему клину:" Доброго вам пути, друзья! Возвращайтесь скорее! Мы вас подождем!"

# СЛОВО О МАТЕРИ



МАТЬ... Это первое в жизни слово лепечет малыш в колыбели, его с благоговением произносит ветеран, склоняя к материнским ладоням свою седую голову.

Мать-это самый надежный и верный друг, самый родной и близкий человек на свете. Ее любовь неиссякаемая, готова на любые жертвы. Это любовь никогда не изменяет. И не случайно вечным символом любви является женьщина с младенцем на руках. С незапамятных времен была она предметом поклонения и восхищения самых замечательных художников, композиторов, поэтов. Именами матерей называют звезды, им воздвигнуты памятники.

Великая сила материнской любви воспета во многих песнях и преданиях. Они живут в народе, передаются из поколения в поколение. И всегда мы нуждаемся в материнской тепле и поддержке.Сколько бессонных ночей провела она у нашей колыбели, согревая своим теплым взглядом. Порой она бывала с нами строга, но это только потому, что она всегда желала нам добро, старалась вовремя предосторечь от ощибок или неверного поступка. Мать провожала нас в дорогу. наказывая быть честными и справедливыми, любить и ценить труд. Мать принимает нас со всеми нашими печальями, недостатками и ощибками. Не упрекая, она прощает, понимает, тайком смахивая слезу...

И для нас должно быть святой обязанностью, потребностью души словом и делом выражать свою любовь и уважение к матери, признательность ее труду и заботам, ее сердцу, ее материнскому подвигу.

Счастлив тот из нас, у кого есть мать и кто успел осознать свой сыновний долг перед ней пока она жива, хоть как-то воздать ей за ее безграничную любовь и заботу, за ее тяжелый, нескончаемый, благородный, материнский труд.

... Люблю смотреть на ночной Баку, когда огней становится все меньше и меньше. И вот уже только в нескольких окнах горит свет и будет гореть еще долго. Наверное, это мать не спит у постели больного ребенка, или, сидя одиноко, в разлуке с сыном, считает дни и ночи, ожидая встречи с ним. А может, это поэт пишет стихи о самом дорогом - о Матери!

## XƏZƏR UNİVERSİTETİNİN VEBSAYTLARINDA YERLƏŞDİRİLMİŞ XƏBƏRLƏR HAQQINDA MÜQAYİSƏLİ MƏLUMAT

Xəzər Universitetinin vebsaytı (www.khazar.org): 2008 - 2023 - cü illər

**2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705; 2022 – 905; 2023 – 870.**

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının vebsaytı (www.hisaxanli.org): 2009 - 2023 - cü illər

**2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117; 2022 – 113; 2023 – 127.**

**“Xəbər-News”qrupu**

## COMPARATIVE INFORMATION ABOUT THE NUMBER OF NEWS POSTED ON UNIVERSITY’S WEBSITE

Khazar University Website (www.khazar.org): 2008-2023

**2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702; 2018 – 700; 2019 – 775; 2020 – 516; 2021 – 705; 2022 – 905; 2023 – 870.**

Website of Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of the Board of Directors and Trustees (www.hisaxanli.org): 2009-2023

**2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126; 2018 – 175; 2019 – 121; 2020 – 77; 2021 – 117; 2022 – 113; 2023 – 127.**

**“Khabar-News” group**

# LOXƏBƏR İNŞALLANIN UYDURMASI

(*novella*)

Qapının zəngi xorultu ilə yatan Fəttah kişinin yuxusuna zəhər qatdı. Yerindən dik atılaraq qapıya cumdu və donquldana-donquldana cəftəni burdu. Kasıb daxmasına təşrif buyuranın xalası oğlu İnşalla olduğunu görəndə Fəttah kişi gözlərini ovuşdura-ovuşdura dedi:

- Oğurluqdan gələnə oxşayırsan, ay xalaoğlu, sübh vaxtı nə olub belə?

- Ay Fəttah, xeyir olsaydı nə azarım vardı bu vaxt sənin evində, - söyləyərək, dəvət-zad gözləmədən cəld mətbəxə keçib soyuducunu açdı və əlinə gələnləri götürüb stolun üstünə düzə-düzə dedi:

- İşlər fırıqdı, xalaoğlu, dünən məni də işdən çıxartdılar.

- Niyə? - deyə, gözlərini ovuşdurmaqda davam edən Fəttah kişi təəccüblə soruşdu:

- Dəli olublar?! Sən ki intizamlı işçisən, hər ay mükafat alırdın, birdən kimin pişiyi asqırdı?

- Pişik asqırsaydı yoluna qoyardım, bu dəfə pələng asqırdı. Dedilər ərizə yaz, mən də dərhal yazdım. Ya bir aya ingilis dilini öyrənməliydim, ya da ərizə yazıb işdən çıxmalıydım. Yox bir, yaşımın bu vaxtında ingilisi dilini də öyrənəcəkdim. Ay xalaoğlu, bilirsən camaat nə danışır? Deyirlər, bundan sonra ingilis dilini ana dili kimi bilməyənləri işə tamam götürməyəcəklər. Məni yandıran budur ki, deyirlər ana dilini bilmək o qədər də vacib deyil, əsas odur ki, ingilis dilini mükəmməl biləsən, beş-on ilə nazir olmasan da, müavini ola bilərsən.

Fəttah kişi xalaoğlunun sözünü ağzında qoyub, əlindəki hərarətölçəni ona uzadaraq dedi:

- Nə gic-gic danışırsan? Deyəsən, sənin qızdırman qalxıb, al bunu, qoy qoltuğunun altına.

Xalaoğlunun ona inanmadığını görən İnşalla and-aman elədi ki xəstə-zad deyil, dediklərini bir dostundan eşidib. Odur ki, hərarətölçənini Fəttah kişiyə qaytararaq dedi:

- Bu hələ harasıdır, xalaoğlu, deyirlər ki, guya gənclər, yəni bizim balalarımız ingilis dilini tam bilməsələr ailə qura bilməyəcəklər. Guya kəbin kəsilən zaman onlar imtahan olunacaqlar. Tərəflərin biri testdən keçməsə onlara əlavə vaxt veriləcək, ta ki bu dili öyrənənə qədər. Bu da hələ sonu deyil, xalaoğlu, qulağını ağzıma yaxınlaşdır, eşit gör daha nə deyirlər; deyirlər ki, gənclərimiz öz sevgililəri ilə öpüşəndə ingiliscə öpüşməlidirlər.

Bu sözü eşidəndə Fəttah kişi sanki div yuxusundan ayıldı, dizlərini döşəməyə çırpıb, əllərini göyə qaldırdı və təkrar-təkrar bu sözləri söylədi:

- Şükür sənə Allah, şükür sənə Allah!

- Deyəsən, indi də sənin qızdırman qalxdı ay xalaoğlu, burada şükür olunası nə var ki, əllərin göydən asılı qalıb? - deyə, İnşalla təəccüblə soruşdu?

- Sən qanan şey deyil bu, şükür etməyimin səbəbini bilsəydin, sən də dizlərini yerə atıb, Allahına minnətdar olardın.

- Sən canın, ay xalaoğlu, ürəyimi çıxartma, de bunun səbəbini, qoy mən də özümü çırpım yerə.

- Ay dilbilməz, ona görə şükür edirəm ki, gənclərimiz ingiliscə öpüşəcəklər daha fransızca yox.

Fransız öpüşünün ləzzətini bilməyən İnşalla, - Allah kəssin onların hər ikisinin öpüşünül – deyərək, "çuval"ın ağzını bir az da açdı, - hələ bu harasıdır, - söyləyib, eşitdiyi bütün "lo" xəbərləri bir-bir Fəttah kişinin qulaqlarına yüklədi:

– Bilirsən? - dedi, - gələcəkdə nəvələrimiz dil açanda "ana", "ata" əvəzinə "mother", "father", "baba" və "nənə" əvəzinə "grandmother", "grandfather" deyəcəklər. Yəni, nəvələrimiz dillərini ingiliscə açacaqlar, onlar demək olar ki, bizim dili bilməyəcəklər.

- Niyə? - deyə, Fəttah kişinin gözləri bərəldi, - bəs anaları onlarla hansı dildə danışacaq?

- Əlbəttə, ingilis dilində. Deyirlər, guya ingilis dilini mükəmməl bilməyən gənc analara uşaq doğmaq da qadağan olunacaq. Bir sözlə, qardaş, işimiz fırıqdır, bir stəkan çay içib, gedək ingilis dili kursuna, yoxsa, gələcəkdə hamı ilə lal dili danışmağı öyrənməliyik. Vallah ingilis dilini öyrənmək ondan asandır, düş qabağıma gedək kursa.

Xalaoğlular kor-peşman halda geyinərək həyətə çıxdılar və yaxınlıqdakı tərcümə mərkəzinə yollandılar. Yolda qarşılarına çıxan İnşallanın "loxəbər" dostu onlarla salamlaşıb soruşdu:

- Hara belə tələsirsiniz?

Dişi dodağını gəmirən Fəttah kişi qeyzlə dilləndi:

- Çərə gedirik, çürə gedirik, Baydenin dilini öyrənməyə gedirik.

İnşallanın dostu vəziyyətin nə yerdə olduğunu biləntək uğunub keçdi və haçandan-haçana özünə gələndən sonra dedi:



*Rəssam Məmmədov İskəndər*
*Memarlıq və Dizayn Departamenti*

- Dünən məni də ingilis dilini bilmədiyim üçün işdən çıxartdılar. Dilxor halda evə qayıdarkən dostum İnşalla qarşıma çıxdı və mən də acığımdan bu yalanları ona uydurdum. Ancaq bilmək olmaz, dostlar, bu gün mənim uydurduğum bu lo xəbər sabah gerçək də ola bilər, ona görə elə mən də sizə qoşulub gedirəm kursa. Haydı, irəli!

# YEMİNİ YE, ... NUŞ OLSUN!

(*Novella*)

Bir dəfə at ilə eşşək ağır iş günündən sonra onlar üçün axura düzülən şam yemlərini yeyə-yeyə dərdləşirlər. Eşşək ağzındakı qanqalı şaqqıldada-şaqqıldada üzünü bir az aralıda axurda onun üçün qoyulan arpalı samanı sümürə-sümürə həzmi - rabedən keçirən ata tutaraq deyir:

- Ay qonşu, bir söz deyəcəyəm, ancaq sən atan ayğırın goru, məndən incimə ha! Sadəcə dərdləşirik də! Bu evdə ən çox işləyən mən, odun gətirən mən, ot daşıyan mən, nə bilim bulaqdan ağır bidonlarda belində su gətirən mən, amma gəl ki, sənə şam yeməyinə arpa qatılmış saman verirlər, mənə isə



*Rəssam Mehdi Samadi*

*Memarlıq və Dizayn Departamenti*

ağzımı-burnumu doğram-doğram edən quru qanqal. Bunu hansı kitaba yazmaq olar axı?!

Eşşəyin giley-güzarını dinləyən at fınxıra-fınxıra öz zərif dodaqları ilə arpalı samandan böyük bir qurtum sümürüb, dərdi açılmış dəvə kimi dərindən köks ötürür və deyir:

-Sənin kimi işləməyə nə var, a bəxtəvər! Səhərin gözü açılan kimi başlayırlar məni minməyə. O düşür, o biri minir, o biri düşür, bu biri minir, gah dağa çapırlar, gah da arana, arabir də şallağı elə çırpırlar baldırımın üstünə, babam ayğırın toyu düşür yadıma. Bir atın nə qədər ağası olar, ay eşşək qardaş?! Mən razıyam, gəl, sabah sahibimizə deyək, vəzifəmizi də dəyişsin, yeməyimizi də. Canım çıxar qanqal yeyərəm, təki məni səhərdən axşama qədər minib çapan bu allahsız ağalardan canım qurtarsın.

Dediklərinə peşman olan eşşək atın dərdinə lap acıyır və etiraz əlaməti olaraq yüngülcə anqıraraq deyir:

- Zarafat edirdim qardaş, mən bu evin eşşəyi olmaqdan qürur hissi duyuram. Biz ikimiz də nökərik, sən at kimi, mənsə eşşək kimi. Nə mən heç vaxt at kimi kişnəyə bilərəm, nə də sən heç vaxt eşşək kimi anqıra bilərsən. Yemini ye, ... nuş olsun!

# "SƏN BUNU QAZANDIN"

Yeməkxanada növbəyə duran tələbə qıza qəfil zəng gəlir. Anası olduğunu görüb o,telefonu açır:

-Salam, anacan! Necəsən?

-Mən yaxşıyam, qızım, təki sən yaxşı olasan. Dərslərin necə gedir, a bala? Yemək-içməyin, pulun-paran qurtarıbsa, atanı göndərim Bakıya.

-Atama niyə əziyyət verirsən, ana. De, qoy kartıma pul atsın. Universitetimizin gözəl yeməkxanası var; ucuz və keyfiyyətli yeməklər bişirirlər burada.

-A bala, bəs ərzaqdan-filandan göndərməyim?

- Mən Xəzər Universitetində oxuyuram, ay ana! Yemək bişirməyə sərf edəcəyim vaxtı dərslərimə yönəldirəm ki, üzünüzü ağ edim. Bax, elə bu dəqiqə yemək götürmək üçün növbədəyəm, anacan!

Növbəsi artıq çatdığı üçün anası ilə xudahafizləşən tələbə qız telefonu çantasına qoyub, özü üçün yemək götürüb kassaya yaxınlaşır. Bayaqdan onun anasına söylədiklərini eşidən yeməkxana müdiri özündən razı halda gülə-gülə, xoş bir təbəssüm nümayiş etdirərək, tələbə qıza deyir:

-Bu gün götürəcəyin yeməklərin qiyməti endirimlə olacaq.

-Niyə?-tələbə qız nə baş verdiyini başa düşmür.

Onun çaşqınlıq içində olduğunu görən yeməkxana müdiri gülə-gülə əlavə edir:

- Çünki sən bunu elə indicə qazandın.



*Rəssam Nigar Əliyeva*

*Memarlıq və Dizayn Departamenti*

*Qələmə aldı:* **Valeh Mirzə**



İstanbul

## TÜRKİYƏNİN BU ŞƏHƏRLƏRİ "ƏN YAXŞILAR" SİYAHISINA DÜŞDÜ

Dünyanın ən yaxşı 100 şəhəri siyahısında Türkiyənin 3 şəhəri də yer alıb.

"Qafqazinfo" xəbər verir ki, İngiltərənin "Euromonitor" tədqiqat şirkəti dünyanın ən yaxşı 100 şəhərinin siyahısını dərc edib.

Həmin siyahıda İstanbul 23-cü, Antalya 57-ci, Bodrum 93-cü yerdə qərarlaşıb.

Qeyd olunub ki, siyahıya daxil olan şəhərlər nəzərdən keçirilərkən iqtisadi, ticarət və turizm göstəriciləri olmaqla 55 fərqli meyar nəzərə alınıb.

Paris siyahının lideridir. İkinci yerdə Dubay, üçüncü yerdə Madrid, növbəti yerlərdə isə Tokio və Amsterdam qərarlaşıb.



Antalya

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# Xəzər Universiteti

**HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!**

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq,
təhsildən zövq almaq və
yadda qalan tələbə
həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi